RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 230 (9109) CÜMƏ, 21 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qardaşlığın Zəngəzur zirvəsi

## Türkiyə-Azərbaycan birliyinin növbəti təntənəsi

## Yaşasın Azərbaycan! Yaşasın Türkiyə!

**Rəcəb Tayyib ƏRDOĞAN:**

Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır. Yəni artıq bütün Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə "Şərq-Qərb", Orta dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək.



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri

**İlham ƏLİYEV:**

Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu. Bütün sahələrdə müttəfiq oldu və bu, həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq eyni zamanda əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır.

### Zəngilan Beynəlxalq Hava Limanında ilk rəsmi qarşılanma



→ 2

### Qumlaq Dəmiryol Stansiyasının təməli qoyulub



→ 4

### Cəbrayıl şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi keçirilib



→ 5

### Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər

→ 3

### Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməli qoyulub

→ 4

### Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü



→ 5

### Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər



→ 6

### Türkiyə Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb



→ 6

### Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak ediblər




→ 2

# Qardaşlığın Zəngəzur zirvəsi

## Zəngilan Beynəlxalq Hava Limanında ilk rəsmi qarşılanma

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Zəngilan Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.





# Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak ediblər





**Oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.**

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsdilər.

Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış oldular.

"Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov Azərbaycan və Türkiyə prezidentlərinə hava limanı barədə məlumat verdi.

Bildirildi ki, Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edəcək.





Perronun sahəsi 60 min kvadratmetrdir. Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Müasir dünya tələblərinə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malik olacaq. Terminal daxilində VIP zal, kafe, tibb məntəqəsi və ofis otaqları mövcuddur.

Aeroportda tam avtomatlaşdırılmış hava hərəkətinə nəzarət və aviasiya rabitəsi sistemləri ilə təchiz olunmuş hava hərəkətini idarəetmə Qülləsi tikilib.

Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib. Qısa müddətdə ILS/DME instrumental eniş sistemləri, VOR/DME marşrutu üzrə hava gəmisi naviqasiya vasitələri, avtomatlaşdırılmış aviasiya və meteoroloji müşahidə sistemləri, ilkin və ikinci dərəcəli radar sistemləri quraşdırılaraq istifadəyə verilib. Bütün sistemlər ICAO və "Eurocontrol"un beynəlxalq aviasiya kataloqlarında qeydiyyatdan keçib.

Zəngilan Beynəlxalq Hava Limanının ərazisində yardımçı binalar, transformator binası, qazanxana və su çənləri inşa edilib.

Uzunluğu təxminən 10 kilometr olan 35 kilovoltluq ikidövrəli elektrik kabel xətti çəkilib. 230 metr dərinlikdə artezian quyusu qazılaraq su çıxarılıb.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Onu da deyək ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.

# Qardaşlığın Zəngəzur zirvəsi

## Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, komplekslə tanışlıq zamanı prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırdılar.

**Jurnalist:** Xeyirli-uğurlu olsun.

**Prezident İlham Əliyev:** Salam.

**Jurnalist:** Bir il əvvəl gələndə də açılış var idi.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** O vaxt daha yeni təməllər qoyulurdu. Baxın, indi necə olub?

**Jurnalist:** Yaşıl sahəyə çevrilib.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Heyvanlar da gətirildi xaricdən. Həm bunları çoxaldırlar, həm də kəsim aparılır. Abdulkadir də burada məsul şəxsdir.

**Jurnalist:** Cənab Prezident, kompleks daha da böyüyəcəkmi?

**Prezident İlham Əliyev:** Abdulkadir bəydən asılıdır.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Rəhbər odur, o necə istəsə, elə də olacaq.

**Abdulkadir:** Təbii ki, böyüyəcək. İnşallah, Laçında davam edəcəyik.

**Prezident İlham Əliyev:** Təbii ki, böyüməlidir. Çünki cəmi bir il ərzində belə böyük işin görülməsi artıq gözəl bir nümunədir.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Dünya artıq kənd təsərrüfatına, heyvandarlığa yönəlib. Başqa çarələri yoxdur.

**Prezident İlham Əliyev:** Keçən il biz burada idik. Boş bir sahə idi, heç nə yox idi. Keçən ilin oktyabr ayında təməlini qoyduq. İndi baxın, bir il keçib, görün nə qədər gözəl işlər görülüb.

**Jurnalist:** Bundan sonra hava limanı harada açılacaq?

**Prezident İlham Əliyev:** Laçında.

**Jurnalist:** Nə zaman açılacaq?

**Prezident İlham Əliyev:** 2024-cü, yaxud 2025-ci ildə ola bilər.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** O qədər də uzatma.

**Prezident İlham Əliyev:** Çünki orada bir dənə də düz yer yoxdur. Böyük torpaq işləri görməliyik. Çünki uçuş-enmə zolağını salmaq üçün biz dağları kəsirik. Odur ki, əsas vaxt ona gedir. Hələ ki, inşaat işləri başlanmayıb. Hələ biz bir il o dağları kəsə-kəsə gedirik. İnşallah, iki ildən, bəlkə də, iki il yarımdan sonra Laçında da hava limanı olacaq. İnşallah, qardaşım da gələcək, bərabər açacağıq.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** İnşallah.

Sonra dövlət başçıları komplekslə tanış oldular.

Məlumat verildi ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. Hər iki prezidentin iştirakı ilə ötən il əkin aparılan buğda və arpanın biçini başa çatdırılıb.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan "Dost Aqropark"ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə "Made in Qarabağ" etiketlərinin ilk nümunələrini vurdular.

Dövlət başçıları "Dost Aqropark"ın nəzdində yaradılan Zəngəzur Ağır Atletika Klubunun açılışında da iştirak etdilər. Açılış mərasimində Türkiyənin və Azərbaycanın ağır atletika üzrə milli komandalarının üzvləri, klubun həvəskar idmançıları prezidentlərlə söhbət etdilər.

Diqqətə çatdırıldı ki, "Dost Aqropark"ın ikinci və üçüncü mərhələləri üzrə işlər də sürətlə davam etdiriləcək. Layihənin bütün mərhələlərinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. Kompleks həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. Qarabağda istehsal olunan məhsulların "Made in Qarabağ" brendi ilə dünya bazarına çıxarılması üçün "Aqro Market" də qurulacaq.


















Qeyd edək ki, "Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Ötən bir il ərzində "Dost Aqropark"da birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb.




Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

❖❖❖

Daha sonra konsert proqramı təqdim edildi və kompleks barədə videoçarx nümayiş etdirildi.

❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış etdilər.

**Prezident İlham ƏLİYEV** dedi:

- Bu gün Zəngilan rayonunun tarixində unudulmaz bir gündür. Qardaş ölkənin sayın Cümhurbaşqanı, qardaşım Rəcəb Tayyib Ərdoğan Zəngilana təşrif buyurub. Bu, bizim üçün böyük bayramdır, bütün Azərbaycan xalqı üçün böyük bayramdır.

Əziz qardaşımı və onunla bərabər Azərbaycana gəlmiş bütün türk bacı-qardaşlarımızı səmimiyyətlə salamlayıram, "Xoş gəlmisiniz!" deyirəm. Biz düz bir il bundan əvvəl, bax, burada idik, o zaman bura boş sahə idi, heç nə yox idi. Burada "Aqropark"ın təməlini qoyduq. Bu gün artıq burada görülən işlərlə tanış olarkən bir daha gördük ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və hər bir sahədə gözəl nəticələr verir.

Burada qeyd olundu ki, bu gün Zəngilan üçün xüsusi bir gündür. Düz iki il bundan əvvəl oktyabrın 20-də Zəngilan şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilmişdir. Zəngilanın 27 illik işğalı sona çatmışdır. Məhz bu gündə Zəngilanda olmağımız, əziz qardaşımla bərabər Zəngilan Hava Limanının və bu "Aqropark"ın açılışını etməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır. Bu "Aqropark"ın yaradılmasında əməyi olan hər bir kəsə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Burada qeyd olundu ki, bu, birinci özəl sərmayədir. Artıq bu "Aqropark"ın genişləndirilməsi və digər rayonlarda bu kimi aqroparkların yaradılması bu gün də müzakirə edilmişdir. Xeyirli olsun, uğurlu olsun!

❖❖❖

**Prezident Rəcəb Tayyib ƏRDOĞAN** dedi:

- Hörmətli qardaşım İlham Əliyev ilə birlikdə bir il əvvəl burada bu "Aqropark"ın təməlini qoymuşduq. İndi qardaşımla birlikdə görülən işləri, qoyulan sərmayəni bu gün birlikdə gözlərimizlə gördük. İndiyədək təxminən 3 min baş cins qaramalın buraya gətirilməsini və bunun, İnşallah, hədəf olaraq 10 min başa çatdırılmasını, haradan-haraya deyərək müəyyən etdik.

Müharibəni görmüş və bu müharibə nəticəsində insanların yaşayışı üçün tamamilə yararsız hala salınmış bu yerlər indi bərəkətli torpaqlara çevrilib. Gələrkən İlham qardaşımla bu barədə danışdıq, indi qısa vaxtda - iki-iki il yarım ərzində su anbarını da inşa edəcəyik dedi. Bu anbar sayəsində buralar daha bərəkətli torpaqlara çevriləcək. Bu bərəkətli torpaqlarda, İnşallah, heyvandarlıqla yanaşı, buğda, qarğıdalı, arpa yetişdiriləcək.

Səhv etmirəmsə, Yunus Əmrə şeirlərinin birində yazırdı ki, Allah bir buğda dənəsindən, bir sünbüldən yüz minlərlə dənə yaradır. İndi burada da bunun bənzərini görəcəyik. Bu sünbüllər, İnşallah, dənələrə çevriləcək və buradan Azərbaycana, Türkiyəyə və bütün dünyaya göndəriləcək. Bunu unutmayaq, artıq heyvandarlığın, kənd təsərrüfatının dünyada mühüm yer tutmalı olduğu bir zamana giririk. Əminəm ki, İlham qardaşım bu sahədə çox önəmli bir addım atır, bunu reallaşdırır. Bura artıq bir taxıl anbarı, heyvandarlıq baxımından bir bərəkət tarlası və bir çox ölkənin də, İnşallah, qapısını döyəcəyi bölgəyə çevriləcək.

Mən başda İlham qardaşım olmaqla "Dost Aqropark"ın rəhbərlərinə çox-çox təşəkkür edirəm, onları təbrik edirəm.

İnşallah, bu torpaqların bərəkətli torpaqlar olaraq əbədi qalmasını diləyirəm.

Gördüyünüz kimi, indi əlimdə qızıl qulplu qayçı var. Bu ikincidir. Hava limanını açarkən bir dənə aldıq, birini də indi aldıq. Aqroparkımız xeyirli olsun.

❖❖❖

Daha sonra dövlət başçıları "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsdilər.

# Qardaşlığın Zəngəzur zirvəsi

## Qumlaq Dəmiryol Stansiyasının təməli qoyulub







**Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq Dəmiryol Stansiyasının təməlini qoyublar.**

AZƏRTAC xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlət başçılarına Horadiz-Ağbənd dəmir yolu xətti və Qumlaq Dəmiryol Stansiyası barədə məlumat verdi.

Bildirildi ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini Azərbaycan Prezidenti 2021-ci il fevralın 14-də qoyub və layihənin 2023-cü ilin sonunda yekunlaşdırılması nəzərdə tutulur.

Dəmir yolu xətti tək xətlidir və ox üzrə uzunluğu 110,4 kilometrdir. Dəmir yolu xətti boyunca 9 stansiya (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd) fəaliyyət göstərəcək. Layihə çərçivəsində həmçinin 456 süni mühəndis qurğusu, 70 yoldəyişən, 110,4 kilometr uzunluğunda rabitə və işarəvermə xətti istismara veriləcək. Hazırda dəmir yolu xəttinin 62-ci və 71-ci kilometrləri arasındakı ərazidə torpaq yatağı və süni mühəndis qurğularının tikintisi işləri aparılır. Layihələndirilmə və tikinti işləri minatəmizləmə prosesinə paralel davam etdirilir.

Məlumat verildi ki, təməli qoyulan Qumlaq Dəmiryol Stansiyası ümumilikdə 1,69 hektar ərazini əhatə edir. Stansiya modern üslubda dizayn edilib və platforma, stansiya binası, avtomobil, avtobus və taksi dayanacaqlarından ibarətdir. İstismara verildikdən sonra stansiya gündəlik olaraq 150-200 nəfər sərnişinə xidmət göstərəcək, habelə müvafiq istiqamətlərdə yüklərin səmərəli və təhlükəsiz daşınmasına imkan yaradacaq.

Dövlət başçılarına Ələt-Ağbənd-Naxçıvan-Qars dəmir yolu layihəsi barədə də məlumat verildi.

## Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməli qoyulub

### Azərbaycan və Türkiyə prezidentləri mərasimdə iştirak ediblər









**Cəbrayıl rayonu ərazisində yaradılacaq Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin oktyabrın 20-də təməlqoyma mərasimi keçirilib, əraziyə 15 baş ceyran buraxılıb.**









AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev kompleksdə görüləcək işlərlə bağlı dövlət başçılarına məlumat verdi.

Bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə 2021-ci ildə qəbul edilmiş Azərbaycan-Türkiyə/Qarabağ Tədbirlər Planına uyğun olaraq, bir sıra ikitərəfli tədbirlərin həyata keçirilməsinə başlanılıb. Bu tədbirlər çərçivəsində həmçinin Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin yaradılması nəzərdə tutulub.

Bu məqsədlə yerli və türkiyəli mütəxəssislərlə birlikdə Cəbrayıl rayonunun Şükürbəyli-Cəbrayıl-Hadrut yolunun ətrafında 40 hektar ərazi seçilib. Ərazi dəniz səviyyəsindən 603 metr yüksəklikdə, Bakı şəhərindən 340 kilometr, Zəngilan Beynəlxalq Hava Limanından 72 kilometr, Füzuli Beynəlxalq Hava Limanından isə 35 kilometr məsafədə yerləşir.

Məlumat verildi ki, kompleksdə üç mərtəbədən ibarət Beynəlxalq Meşə Təlim Mərkəzində konfrans zalı, təlim otaqları, qonaq evi, ikimərtəbəli inzibati bina, laboratoriya, yeməkxana, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksi yaradılacaqdır. Təlim mərkəzində türkiyəli mütəxəssislər və beynəlxalq təlimçilər tərəfindən Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və digər region ölkələrinin meşə mütəxəssislərinə təlimlər keçiriləcək.

Mərkəzin elektrik təchizatı üçün 180 kilovat gücündə günəş-elektrik stansiyasının quraşdırılması planlaşdırılır.

Diqqətə çatdırıldı ki, "Ağıllı Tingçilik"də qabaqcıl texnologiyalar əsasında istixanalar, toxum saxlama mərkəzi, qapalı kök sistemli ting istehsal sahələri, köçürmə sahələri, kölgələndirmə, soyuducu, qablaşdırma və gübrə anbarları, ting tədarük mərkəzi, təlim zonası, maşın və traktor təlim parkları inşa ediləcəkdir. Burada il ərzində yerli iqlim şəraitinə uyğunlaşdırılmış 2 milyon müxtəlif ting yetişdirilərək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının meşə fondu torpaqlarında meşələrin salınmasında və yaşıllaşdırma işlərində istifadə olunacaq.

Məlumat verildi ki, layihə ərazisində torpaqqazma və doldurma işlərinə bu il iyunun 20-də başlanılıb və layihənin 2024-cü il iyulun 1-də tam yekunlaşdırılmaqla istismara verilməsi nəzərdə tutulur.

Sonra Azərbaycan və Türkiyə prezidentləri ərazidə ağac əkdilər.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan əraziyə ceyranlar buraxdılar.

Qeyd edək ki, Azərbaycan ərazisində ceyranların sayının kritik həddə azalması təhlükəsi nəzərə alınaraq ceyran populyasiyasının tarixi areallarında onun təbii bərpasının təmin edilməsi məqsədilə Azərbaycan Prezidenti tərəfindən 2003-cü ildə Şirvan Milli Parkı yaradılıb və həyata keçirilən intensiv mühafizə tədbirləri nəticəsində ölkəmizdə ceyranların populyasiyası bərpa edilib.

2021-ci ilin noyabr sayımına əsasən, Şirvan Milli Parkının ərazisində 6228 baş ceyran mövcuddur.

Həssas ekosistemlərin bərpası, o cümlədən flora və fauna növlərinin qorunması üçün əsas fəaliyyətlərdən hesab olunan reintroduksiya layihələri davam etdirilir.

İşğal dövründə bioloji müxtəliflik komponentlərinə ciddi ziyan dəymiş Qarabağ bölgəsində də bu layihələrin icrası planlaşdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin - ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növlərinin 2022-2023-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub.

Azad olunmuş ərazilərdə balıq növlərinin populyasiyasının bərpası üçün də davamlı işlər görülür. İki il ərzində Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə balıq körpələrinin buraxılışı təşkil olunub və bu işlər növbəti illərdə də həyata keçiriləcək.

# Qardaşlığın Zəngəzur zirvəsi

## Cəbrayıl şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi keçirilib







**Oktyabrın 20-də Cəbrayıl şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycan nümayəndə heyəti Türkiyə Prezidentinə, Türkiyə nümayəndə heyəti Azərbaycan Prezidentinə təqdim olundu.

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.







## Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü

**Oktyabrın 20-də Cəbrayıl şəhərində rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçıları rəsmi foto çəkdirdilər.

Sonra Azərbaycan və Türkiyə prezidentləri söhbət etdilər.





# Qardaşlığın Zəngəzur zirvəsi

## Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər

**Oktyabrın 20-də Cəbrayıl şəhərində təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.



**Prezident İlham ƏLİYEVİN bəyanatı**

- Əziz qardaşım, hörmətli Cümhurbaşqanı.

Əziz qonaqlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Əziz qardaşımı Cəbrayılda, Zəngilanda salamlamaq, "Xoş gəlmisiniz!" demək mənim üçün böyük şərəfdir. Bu gün biz birlikdə Zəngilan Hava Limanının açılışını qeyd etdik. Bir il bundan əvvəl əziz qardaşımın iştirakı ilə Füzuli Hava Limanını bir yerdə açdıq, bu gün Zəngilan Hava Limanını açdıq. Yəni bu onu göstərir ki, biz bütün xoş günlərdə bərabərik.

Bugünkü gün Qarabağ və Şərqi Zəngəzur üçün çox önəmli bir gündür. Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümüdür. Düz iki il bundan əvvəl erməni işğalına son qoyuldu. Azərbaycan Ordusu Zəngilan şəhərini azad etdi və məhz belə bir gündə Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır.

Zəngilanın azad olunmasından bir neçə gün sonra Qubadlı erməni işğalından azad edildi və Azərbaycan Ordusunun bir qruplaşması Laçın istiqamətində irəliləməyə başlamışdı, digər qruplaşma isə Şuşaya istiqamət götürmüşdü. Alınmaz qala sayılan Şuşa noyabrın 8-də erməni işğalından azad edilmişdir, Azərbaycan Bayrağı qaldırılmışdır və ondan sonra Ermənistan təslim oldu.

Bütün bu şanlı tarix bizim müştərək tariximizdir. Çünki İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi. Bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam edirdi. Bu bizə əlavə güc verirdi, bu bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını alırdı. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük. Genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, "Dost Aqropark"ın açılışını birlikdə qeyd etdik. Bu da bu bölgəyə birinci özəl sərmayədir və bu aqroparkın adı da - "Dost Aqropark" özlüyündə hər şeyi deyir. İnşaat, yol çəkilişi işlərində Türkiyə şirkətləri bizimlə bərabər çalışırlar. Biz Türkiyə şirkətlərinə minnətdarıq ki, qısa müddət ərzində böyük işlər görürlər. Yolların, - yolların bir hissəsi artıq hazır vəziyyətdədir, - dəmir yolları, eyni zamanda 33 tunelin inşası nəzərdə tutulmuşdur. Onların bir neçəsində fəal iş gedir. Tunellərin ümumi uzunluğu 50 kilometrdən çoxdur, 84 körpü tikiləcək, onların bir qismi inşa edilmişdir. Körpülərin ümumi uzunluğu 12 kilometrdir. Bu, ancaq birinci mərhələdə görülən və görüləcək işlərdir. Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlər görüləcək və biz bunu edəcəyik.

Bu gün bizim rəsmi mərasimimiz Cəbrayıl şəhərində keçirildi. Əslində, Cəbrayıl şəhəri yoxdur, çünki bax burada, oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma erməni işğalı dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerləbir etmişlər. Cəbrayıl şəhərindən bax bu dağılmış binalar qalıb. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilmişdir. Görün onlarda Azərbaycan xalqına qarşı nə qədər nifrət var idi ki, bütün binaları yerləyeksan etdilər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, Ağalı kəndinin timsalında biz bunu görürük. Dünən mən Ağalı kəndində idim, məktəbə getmişdim. Məktəbdə 70 uşaq oxuyur. Yəni o uşaqların heç biri buranı görməyib. Hətta onların bir çoxunun valideynləri də işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir, Vətən çəkir və hamımız qayıdacağıq. Bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar. Biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq və bu bərpa-quruculuq işlərində türk qardaşlarımız bizimlə bir yerdədirlər.

Bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, bizim üçün böyük xoşbəxtlikdir. İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi. Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu. Bütün sahələrdə müttəfiq oldu və bu, həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq eyni zamanda əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır.

Əziz qardaşımın liderliyi sayəsində Türkiyə son illər böyük uğurlu yol keçib, dünya çapında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır. Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir. Hər kəs bununla hesablaşmalıdır və hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət vardır və bunu Azərbaycana gələn hər bir insan görür.



İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir. Bu gün əziz qardaşımın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı və izni ilə aparılacaq. İstər siyasi təşəbbüslər, iqtisadiyyat, enerji, nəqliyyat - bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıbdır.

Əziz qardaşım, bu əziz gündə bizimlə bərabər olduğunuz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə xalqına xoşbəxtlik, sülh arzulamaq istəyirəm. Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

❖❖❖

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Rəcəb Tayyib ƏRDOĞANIN bəyanatı**

- Hörmətli cənab Prezident, əziz qardaşım.

Hörmətli nazirlər.

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə salamlayıram.

Əvvəlcə Can Azərbaycanın iki gün əvvəl qeyd etdiyi Müstəqilliyin Bərpası Gününü bir daha təbrik edirəm.

İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ikinci hava limanının açılışında iştirak etmək, ikinci hava limanını, həqiqətən, müasir dünyanın müşahidə etdiyi şəkildə ən müasir hava limanlarından biri olaraq açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyildir. İndi sağıma-soluma baxıram, işğal dövründə Cəbrayılı nə hala salmışlar. Mən qardaşımdan soruşdum, dedim, bu ATƏT, Avropa İttifaqı buraları gəlib görmədimi? Yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Onlar burada dəstəklədikləri həmin işğal dövründə Cəbrayılı, Qarabağın digər bölgələrini nə hala gətirdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində, onlar nələr törədildiyini bilirlər.

Amma bunu görəndən sonra bu barədə danışdıq, bu işləri mütləq ədalət mühakiməsinə verərək, bunların təzminatını tələb etmək lazımdır. Bunların təzminatını istəyərək onları dalana dirəmək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq.

Dağıdılmış, yerləyeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük. Eşidərək deyil, görərək bu ifadələri işlədirik. Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır.

Bu gün Zəngilanda açılışını etdiyimiz Beynəlxalq Hava Limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir. Belə mühüm bir layihədə türk şirkətlərinin də yer alması bizim üçün də ayrıca bir iftixar mənbəyidir.

Azərbaycanlı qardaşlarımızın azad edilən torpaqlara qayıtmağa başlamaları da bizi həddindən artıq sevindirir. Böyük qayıdış prosesi çərçivəsində azərbaycanlı qardaşlarımızın "ağıllı kənd" konsepsiyasına uyğun inşa edilən Ağalı kəndində məskunlaşmaları ilə Vətən həsrətlərinin, İnşallah, başa çatdığını görürük. Ağalı kəndini gördük, oraya bundan sonra artıq kənd deyə bilmərik. Ora artıq müasir bir şəhər kimi inkişaf edir.

Onun yanında "Dost Aqropark"ı gördük, orada kənd təsərrüfatı, o cümlədən heyvandarlıq sahəsində, həqiqətən, çox mühüm addım atılmışdır. Bir il əvvəl təməlqoyma mərasiminə gələndə çox fərqli bir ərazi idi. Amma indi kənd təsərrüfatı sahəsində çox ciddi iş görülərək bu ərazinin necə dirçəldildiyini gördük. Burada təxminən üç min baş cins qaramalın olması, bu imkanın da dəyərləndirilərək bir tərəfdən onların kəsimi, digər tərəfdən bəslənməsi, artırılması - bu istiqamətdə görülən işlərlə bu addım, həqiqətən də, Böyük qayıdış layihəsinin həyata keçirilməsidir.

Yolda gələrkən hörmətli qardaşım bəzi məsələləri də mənə izah etdi. Misal üçün, burada ən önəmli məsələ sudur. Su məsələsinə gəldikdə, qısa müddətdə burada su anbarının inşası ilə bu problem də aradan qaldırılacaq. Beləliklə, bu tarlalarda kənd təsərrüfatının inkişafı sayəsində çox ciddi nəticə əldə edəcəklərini söylədilər, həqiqətən, bizim də gördüyümüz və inandığımız budur.

Çox qısa müddətdə burada kənd təsərrüfatı sahəsində də ciddi nəticələrin əldə edilə biləcəyini gördük. Ot bağlamalarının düzülüşü bizə o nəticəni göstərir. Biz də tədbiri ot bağlamalarının üzərində oturaraq izlədik. Buna görə də təbrik edirik. Yəni minaların yerini artıq bunlar alıb. İnfrastruktur problemini tamamilə aradan qaldırmağa çalışırlar. Zənn edirəm ki, bir ildən sonra gələndə Cəbrayıl yolunun çox fərqli vəziyyətdə olacağını görəcəyik. Çünki burada da infrastruktur məsələləri ilə bağlı ciddi addımlar atılır. Burada da "Cengiz", "Kalyon" şirkətlərinin müştərək fəaliyyəti ilə bu addımlar da atılmışdır. Ötən səfərimdən bir il sonra burada asfaltlanma işlərinin aparıldığını, körpülərin inşa olunduğunu, bu gün təməlini qoyduğumuz dəmir yolu ilə bağlı addımların atıldığını gördük. Dəmir yolunun buraya gətirilməsi buradakı inkişaf hərəkatının, həqiqətən, böyük, bir layihə olaraq necə sürətlə həyata keçirilməsinin nümayişi baxımından böyük önəm daşıyır.

Qarabağın inkişaf planı çərçivəsində başda kənd təsərrüfatı, "yaşıl enerji" və "ağıllı şəhərlər" olmaqla, bütün layihələrdə Türkiyə Azərbaycanın yanında olmağa hazırdır.

Artıq həmrəylik əsasında atdığımız addımlar var. Bunları inkişaf etdirərək daha mühüm və nəhəng layihələri birlikdə həyata keçirməyə hazırıq. Təbii ki, mühüm addımlardan daha biri olan - Cəbrayılda təməlini qoyduğumuz Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksi də həmrəyliyimizin rəmzidir.

Hörmətli media nümayəndələri, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır. Yəni artıq bütün Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə "Şərq-Qərb", Orta dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək.

Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edib, 30 ildir verilməyən haqqını geri alıb. Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub. Hər zaman söylədiyim kimi, sülhün uduzanı olmaz. Yeganə məqsədimiz bölgəmizin firavan gələcəyini inşa etməkdir.

Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan normallaşdırma prosesləri bir-birini dəstəkləyəcək şəkildə irəliləməkdədir. Açılan bu fürsət pəncərəsini yaxşı dəyərləndirmək lazımdır.

Hörmətli media nümayəndələri, Cümhuriyyətimizin 100-cü ilini qeyd edəcəyimiz 2023-cü ilin Azərbaycanda da "Heydər Əliyev İli" olaraq qəbul edilməsindən məmnunluq duyuruq. Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsini birlikdə yaşatmağa davam edəcəyik.

Sözlərimi bu düşüncələrlə yekunlaşdırarkən şəxsən mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə xüsusilə millətim adından minnətdarlığımı ifadə edir, təşəkkürümü bildirirəm.

Rəbbim birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!

# Türkiyə Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri oktyabrın 20-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Zəngilan Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yola saldı.





# Baş nazirin müavini Şahin Mustafayev İranın vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi Təşkilatının sədri ilə görüşüb



Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev oktyabrın 20-də İran İslam Respublikasının vitse-prezidenti, İranın Ətraf Mühitin Mühafizəsi Təşkilatının sədri Əli Səlaceqe ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə cari ildə diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünü qeyd edən Azərbaycanla İran arasında ali siyasi dialoqun mövcud olduğu məmnunluqla vurğulanıb.

Oktyabrın 13-də Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısı çərçivəsində Azərbaycan və İran prezidentləri arasında keçirilmiş görüş bunun təzahürü kimi qiymətləndirilib.

İki ölkə arasında siyasi, ticari-iqtisadi, nəqliyyat-tranzit, energetika, mədəniyyət, ətraf mühit və digər sahələrdə dostluq və qonşuluq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olunub.

Eyni zamanda bölgədə nəqliyyat kommunikasiyalarının açılmasının əməkdaşlıq üçün geniş imkanlar yaratdığı bildirilib.

Bakıda keçirilən "Xəzər dənizinin ətraf mühitinin mühafizəsi üzrə Çərçivə Konvensiyası"nın Tərəflər Konfransının 6-cı iclasının əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, Xəzər dənizinin ətraf mühitinin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələləri Azərbaycanın milli siyasətinin prioritet istiqamətlərindəndir. Xəzər dənizinin ətraf mühitinə mənfi təsirin minimuma endirilməsi istiqamətində ölkəmiz tərəfindən ardıcıl tədbirlərin görüldüyü diqqətə çatdırılıb.

Ekoloji problemlərin həlli üçün Xəzəryanı ölkələrin səylərinin birləşdirilməsinin vacibliyi xüsusi vurğulanıb.

Eyni zamanda Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsindən narahatlıq ifadə olunub, çayın ətraf mühitinin mühafizəsi üçün birgə səylərin zəruriliyi diqqətə çatdırılıb.

# YAP-ın təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər davam edir






Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq silsilə tədbirlər davam edir.

Tədbirlər planı çərçivəsində oktyabrın 20-də partiyanın Gədəbəy, Xızı, Yevlax və Kəlbəcər rayon təşkilatları tərəfindən Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü ilə əlaqədar tədbirlər keçirilib.

Tədbirlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi və Şəhidlər xiyabanı ziyarət olunub.

Keçirilən tədbirlərdə - Gədəbəy rayonunda YAP Gədəbəy Rayon Təşkilatının sədri Rüstəm Nağıyev, YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov, Xızı rayonunda YAP Xızı Rayon Təşkilatının sədri Ayaz Quliyev, Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP İdarə Heyətinin üzvü Elnarə Akimova, Milli Məclisin deputatı Müşfiq Məmmədli, Yevlax rayonunda YAP Yevlax Rayon Təşkilatının sədri Rafiq Əliyev, Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev, Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, YAP İdarə Heyətinin üzvü Elnur Sadıqov, YAP Veteranlar Şurasının üzvü Zahid Xəlilov, Milli Məclisin deputatı İlham Məmmədov, YAP Kəlbəcər Rayon Təşkilatının Gəncə şəhərində keçirdiyi tədbirdə isə rayon təşkilatının sədri Həbib Misirov, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov, Milli Məclisin deputatı Aqil Məmmədov, Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev və başqaları çıxış ediblər.

Çıxışlarda Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi zəngin və şərəfli inkişaf yoluna nəzər salınıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamızın qazandığı nailiyyətlərdən bəhs olunub.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

Bundan əlavə, tədbirlər planına uyğun olaraq oktyabrın 20-də YAP Nəsimi Rayon Təşkilatının gənc üzvləri Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

# Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi ilə bağlı ictimai dinləmə keçiriləcək

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan bütün siyasi partiyaların nümayəndələrinin müraciəti əsasında parlamentdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı müvafiq iş aparılır.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sənədin ictimai-siyasi əhəmiyyətini nəzərə alaraq, yeni qanun layihəsi ilə bağlı ictimai dinləmənin oktyabrın 24-də keçirilməsi nəzərdə tutulur.

*"Azərbaycan"*

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli oktyabrın 20-də Lənkəran şəhərində vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

AQTA-nın məsul əməkdaşlarının iştirakı ilə keçirilən qəbula gələn vətəndaşların müraciətləri əsasən regionda bitkiçilik, heyvandarlıq və qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin fəaliyyəti, o cümlədən ixrac olunan məhsullara sertifikatların verilməsi, məhsulların laborator müayinələrinin aparılması, heyvan kəsimi fəaliyyəti və bununla bağlı agentlik tərəfindən həyata keçirilən baytarlıq nəzarəti və digər məsələlərlə bağlı olub. Qəbula gələn hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

Vətəndaşların müraciətlərinin bir qismi yerində öz həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Agentliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Qəbul zamanı Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun (AQTİ) region üzrə yerli bölmələrində işlə təmin olunmaq istəyən, qida sahəsində müvafiq ixtisaslara yiyələnmiş vətəndaşların müraciətlərinə baxılıb.

* * *

Mədəniyyət naziri Anar Kərimov oktyabrın 20-də Masallı rayonundakı Heydər Əliyev Mərkəzində Masallı, Cəlilabad və Yardımlı sakinləri, eləcə də digər rayonlardan qəbula gələn vətəndaşlarla görüşüb. Qəbulda iştirak edən sakinlərin müraciətləri əsasən işlə təmin olunma, iş yerinin dəyişdirilməsi, əmək müqaviləsinin uzadılması, müəssisələrin təmiri, tarixi abidənin bərpası, müəssisəyə ad verilməsi və digər məsələləri əhatə edib.

Anar Kərimov vətəndaşların müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

# Daşkənddə xüsusi xidmət orqanları rəhbərlərinin iştirakı ilə beynəlxalq konfrans olub

Oktyabrın 19-da Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində "Əfqanıstan: regional qarşılıqlı əlaqə, təhlükəsizlik və inkişaf" adlı beynəlxalq konfrans keçirilib.

Konfransda Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin(DTX) rəisi general-polkovnik Əli Nağıyevin başçılıq etdiyi nümayəndə heyəti ilə yanaşı, Türkiyə, Rusiya, İran, Əfqanıstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan və Türkmənistanın xüsusi xidmət orqanlarının rəhbərləri və nümayəndə heyətləri iştirak ediblər.




DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə iştirakçı dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərləri Əfqanıstanda təhlükəsizliyin möhkəmləndirilməsi, sülhün və əmin-amanlığın təmin olunması, həmçinin regional və qlobal təhlükəsizliyə yönəlmiş təhdidlərin qarşısının alınması, terrorçuluq və onun təzahürləri ilə, eləcə də sabitliyə mənfi təsir göstərən digər amillərlə mübarizədə göstərilən birgə səylər barədə fikir mübadiləsi aparıblar.

General-polkovnik Əli Nağıyev çıxışında Əfqanıstanda uzun illərdir hökm sürən mürəkkəb vəziyyətlə əlaqədar respublikamız tərəfindən bu ölkəyə mütəmadi olaraq göstərilən texniki və humanitar yardımlardan söz açıb, dövlətlərin bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsinin vacibliyindən danışıb. Xidmət rəisi bildirib ki, Əfqanıstan uzun zaman ərzində terrorçu və ekstremist qruplaşmaların əsas fəaliyyət məkanı olub, hazırda yerli hökumət tərəfindən belə halların qarşısının alınması istiqamətində müəyyən tədbirlərin görülməsinə baxmayaraq, cinayətkar birləşmələrin fəaliyyətinin hələ də müşahidə olunması Əfqanıstanda sülhün və sabitliyin bərqərar olmasına mane olur, Orta Asiyada yerləşən ölkələrlə yanaşı, digər dövlətlərin də milli təhlükəsizliyinə ciddi təhdidlər yaradır.

Əli Nağıyev çıxışının sonunda Azərbaycanın Əfqanıstanda təhlükəsizliyin və əmin-amanlığın təminatı üçün göstərdiyi səylərin bundan sonra da davam etdiriləcəyini söyləyib. Belə bir konfransın keçirilməsinin regionda və Əfqanıstanda sülh və sabitliyə önəmli töhfə verəcəyinə inamını ifadə edib.

# Bakıda biznes və insan hüquqları sahəsində ombudsmanların rolu mövzusunda konfransa sessiyalarla yekun vurulub

Bakıda oktyabrın 20-də Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) təsisatının 20 illiyi münasibətilə "Biznes və insan hüquqları sahəsində ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Bakı Beynəlxalq Konfransı sessiyalarla yekunlaşıb.

AZƏRTAC xəbər verir ki, konfransın dördüncü sessiyasında müvafiq insan hüquqları alətləri və standartlarının icrasına hesabat vermək, həmçinin nəzarət etmək üçün beynəlxalq, regional insan hüquqları mexanizmləri ilə qarşılıqlı əlaqə barədə fikir mübadiləsi aparılıb.

Bildirilib ki, korrupsiyaya, ayrıseçkiliyə qarşı fəaliyyət gücləndirilməlidir. İqtisadi və sosial məsələlərin həlli istiqamətində də ciddi işlərin görülməsi vacibdir. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) biznes fəaliyyətləri və insan hüquqlarının qorunması sahəsində fəallıq nümayiş etdirir. Beynəlxalq insan hüquqları təşkilatları və Paris prinsipləri haqqında məlumat verilib. Onların müstəqil olduğu vurğulanıb.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) təsisatının 20 illiyi münasibətilə konfrans iştirakçılarına poçt markaları hədiyyə edilib.

Konfrans milli insan hüquqları təsisatlarının, həmçinin vətəndaş cəmiyyəti təşkilatlarının biznes və insan hüquqları sahəsində rolu mövzusunda diskussiyalarla yekunlaşıb. Qabaqcıl ölkələrin biznes və insan hüquqları sahəsindəki təcrübələri diqqətə çatdırılıb. Bu sahədə hazırkı və gələcək tendensiyalardan danışılıb. Milli insan hüquqlarının müstəqil olması qeyd edilib. Biznesin həqiqi və potensial təsirləri haqqında məlumat verilib.

Sonda "Biznes və insan hüquqları sahəsində ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Bakı Beynəlxalq Konfransının iştirakçılarının birgə bəyannaməsi qəbul edilib. Bəyannamədə baş verən silahlı münaqişələr nəticəsində beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, habelə törədilən müharibə cinayətlərinə, ərazilərin minalarla çirkləndirilməsinə qarşı birgə mübarizənin labüdlüyü diqqətə çatdırılıb.

Ombudsmanların, milli insan hüquqları təsisatlarının, beynəlxalq təşkilatların, xarici ekspertlərin, habelə digər tərəfdaşların, o cümlədən vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə beynəlxalq biznes və milli səviyyədə təşkil edilən konfranslarda, seminarlarda birgə müzakirənin aparılması barədə razılığa gəlinib.

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Oktyabrın 20-si saat 16:30-dan saat 17:35-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Daşkəsən rayonunun Astaf və Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan fasilələrlə atəşə tutublar.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Şəhid ailələri, müharibə əlilləri və imtiyazlı kateqoriyadan olan digər şəxslərə daha 50 mənzil təqdim olunub

Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri, müharibə əlilləri və imtiyazlı kateqoriyadan olan digər şəxslərə (Çernobıl əlilləri, gözdən əlilliyi olan şəxslər) daha 50 mənzil təqdim edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, mənzillərin sənədlərinin təqdim edilməsi zamanı əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə əlilləri ilə bağlı genişmiqyaslı sosial dəstək işləri aparılır.

Həmin işlər çərçivəsində onların mənzillə təminatı proqramı beş dəfə genişləndirilib. Habelə imtiyazlı kateqoriyadan olan digər vətəndaşlarımızın mənzillə təminatı tədbirləri geniş vüsət alıb.

Qeyd olunub ki, bu gün Abşeron rayonu və Bakının Sabunçu, Binəqədi rayonlarındakı yeni yaşayış komplekslərində təqdim edilən mənzillər də daxil olmaqla şəhid ailələri və müharibə əlillərinə postmüharibə dövründə 4 min, ümumilikdə ötən dövrdə 13 minədək mənzil və fərdi ev verilib.

Şəhid ailələri və müharibə əlillərinə bu il üzrə 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, onlardan 1000-ə qədəri təqdim edilib.

Çernobıl əlilləri və gözdən əlilliyi olan şəxslərin mənzillə təminatı işləri də davam etdirilir. Çernobıl əlillərinə 2021-ci ildə 258, bu ilin ötən dövründə 64, gözdən əlilliyi olan şəxslərə ötən il 255, 2022-ci ildə isə 149 mənzil təqdim edilib.

Yeni mənzillərlə təmin edilən imtiyazlı şəxslər dövlət qayğısı ilə əhatə olunduqlarına, bu gün isə onlara mənzillər verildiyinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Liz Trass istefa verdi

## Böyük Britaniyanın Baş naziri cəmi 45 gün hökumətə rəhbərlik edə bildi

Liz Trass Böyük Britaniyanın Baş naziri vəzifəsindən istefa verib. Siyasətçi cəmi 45 gün hökumətə rəhbərlik edib.

Xatırladaq ki, kraliça II Elizabet ölümündən iki gün öncə, sentyabrın 6-da Trassı Baş nazir təyin edib.

Bundan əvvəl Britaniya parlamentinin 100-ə yaxın üzvü "1922-ci il Komitəsi" - Mühafizəkarlar Partiyasının rəhbər komitəsinin sədri Qrem Brediyə məktub yazaraq, uğursuz iqtisadi siyasətinə görə partiya lideri Liz Trassa etimadsızlıq səsverməsinin keçirilməsini istəyib.

Liz Trass bildirib ki, Mühafizəkarlar Partiyasının lideri postundan da istefa verir.

47 yaşlı Trass yeni Baş nazir seçilənə qədər səlahiyyətlərini icra etməyə davam edəcək. O, Britaniya tarixində bu vəzifəni ən az müddət icra edən şəxsdir.

Mühafizəkarlar Partiyasının yeni liderinin və baş nazirin seçkiləri gələn həftə keçiriləcək.

Qeyd edək ki, daha əvvəl İcmalar Palatasında çoxluğun əsas parlament təşkilatçısı Vendi Morton, onun müavini Kreyq Uittaker, habelə daxili işlər naziri Suella Braverman və maliyyə naziri Kvazi Kvarteng də istefa vermişdilər.

Böyük Britaniyada son dörd ildə üç baş nazir, son dörd ayda isə dörd maliyyə naziri dəyişib.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Sarsılmaz qardaşlıq və strateji tərəfdaşlığın real gücü

## Azərbaycan və Türkiyə prezidentləri Şərqi Zəngəzurdan bunu bir daha dünyaya nümayiş etdirdilər

Tarixi köklərə dayanan Azərbaycan-Türkiyə münasibətləri 2021-ci ilin 15 iyununda Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan Şuşa Bəyannaməsi ilə daha da möhkəmləndi. Azərbaycanın haqq savaşında mənəvi dəstəyini əsirgəməyən qardaş Türkiyə müharibədən sonrakı dönəmdə də daim ölkəmizin yanında olduğunu bəyan etdi.







Prezident İlham Əliyevin dəvəti ilə Türkiyə Prezidentinin ölkəmizdə keçirilən Zəfər paradında, daha sonra işğaldan azad olunmuş ərazidə - Qarabağda tikilən ilk aeroportun - Füzuli Beynəlxalq Hava Limanının açılışında, həmçinin bu kimi vacib bir sıra tədbirlərdə, açılış mərasimlərində iştirakı münasibətlərin ölkə rəhbərləri səviyyəsində hər şeydən öncə qardaşlığa, dostluğa dayandığını göstərir.

Cəmi 8 aya tikilən Füzuli hava limanının açılışı da ötən il oktyabrın 26-da Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutdu. Hava limanının rəmzi lentini birlikdə kəsən dövlət başçıları orada yaradılan şəraitlə tanış oldular.

Dünən isə işğaldan azad olunmuş ərazilərimizdə ikinci, Şərqi Zəngəzurda isə ilk beynəlxalq hava limanı açıldı. Ötən ilin aprelində təməli qoyulan Zəngilan Beynəlxalq Hava Limanının açılışında da daim Azərbaycanın yanında olan, dəstək göstərən Türkiyə Prezidenti iştirak etdi.

### İki qardaş ölkənin birgə fəaliyyətinin göstəricisi

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizin əməkdaşına açıqlamasında dedi ki, Zəngilan Beynəlxalq Hava Limanının açılışı çox böyük tarixi hadisədir. Azərbaycan bu bölgədə daha bir hava limanı açmaqla ərazinin sosial-iqtisadi inkişafı üçün böyük perspektivlər yaradır. Torpaqlarımız Ermənistan işğalından azad olunduqdan sonra Şərqi Zəngəzurun inkişafı, bərpası məsələsi öndə dururdu. Təsadüfi deyil ki, işğaldan azad olunan ərazilərdə ilk yaşayış məskəni məhz Zəngilanın Ağalı kəndində salındı.

Deputat qeyd edir ki, bu hava limanının açılışı orada yeni iqtisadi layihələrin həyata keçirilməsinə, regionla paytaxtın, eyni zamanda dünyanın digər ölkələri ilə əlaqələrin güclənməsinə, regiona turist marağının artmasına səbəb olacaq: "Füzuli hava limanında olduğu kimi, Zəngilan aeroportunun açılışında da Azərbaycanın yaxın dostu, Türkiyənin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan iştirak etdi. Bu, Azərbaycan-Türkiyə dostluğunun yeni nümunəsidir".

Aydın Mirzəzadə vurğuladı ki, bu, strateji məsələlərin həllində qardaş, dost ölkələrin birgə fəaliyyətinin göstəricisidir. Zəngilan hava limanının açılışı həm Ermənistanla sərhədlərimizin möhkəmlənməsinə, həm sərhədyanı zonaların iqtisadi inkişafına, həm də həmin zonada məskunlaşmaya, ümumilikdə isə Şərqi Zəngəzurun ikinci həyatının başlanmasına böyük imkan yaradacaq, yeni səhifə açacaq.

### Azərbaycan-Türkiyə dostluğu birlik nümunəsidir

Milli Məclisin deputatı Tahir Kərimli bildirib ki, Türkiyə Azərbaycan dostluğunun analoqu yoxdur. Heç bir dövlət siyasi, mənəvi, milli baxımdan bir-birinə bu qədər yaxın deyil. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın dostluğu dövlətlərarası dostluğun zirvəsini təşkil edir. Türkiyə Prezidentinin Zəngilan hava limanının açılışında iştirak etməsinin isə fövqəladə əhəmiyyəti var.

Deputat hesab edir ki, iki ölkə arasında dostluq, müttəfiqlik əlaqələri, birgə fəaliyyət daim davam edəcək. Türkiyənin dəstəyi Azərbaycan üçün çox önəmlidir. Azərbaycan-Türkiyə dostluğu təkcə iqtisadi baxımdan deyil, həm də mənəvi baxımdan birlik nümunəsidir. Aeroportun Şərqi Zəngəzurda açılması da çox vacibdir və gələcəkdə yüklərin, sərnişin daşınmasında əhəmiyyətli rol oynayacaq.

### Türkiyə-Azərbaycan qardaşlığının sarsılmazlığının dünyaya daha bir bəyanı

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirdi ki, 30 illik işğal dönəmində Qarabağ və Şərqi Zəngəzurda daşı daş üstünə qoymayıblar. Deputat vurğulayıb ki, işğal dövründə nəinki quruculuq-bərpa işi aparılmayıb, əksinə, vaxtilə azərbaycanlıların qurub-yaratdığı evlər, təhsil, səhiyyə, mədəniyyət müəssisələri yerləyeksan edilib. Azərbaycanın isə işğala son qoyduğu 2020-ci ilin noyabr ayından bəri bütövlükdə bölgəyə həyat qayıdıb. Təsəvvür edin, azad olunan torpaqlarda çox keçmədən su-elektrik stansiyası istifadəyə verildi, kənd təsərrüfatı canlandı. İşğaldan azad edilərkən bayraq sancmağa bir tikili tapılmadığı Füzulidə cəmi 8 aya beynəlxalq hava limanı tikilib istifadəyə verildi. 30 il təyyarə görməyən Qarabağ və Şərqi Zəngəzur səması, nəhayət ki, ilk beynəlxalq səviyyəli qonaqlarını qəbul etdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan həmin o əlamətdar gündə Azərbaycanın müzəffər lideri İlham Əliyevlə birlikdə hava limanının açılışını etdi.

B.Məhərrəmov dedi ki, oktyabrın 20-də daha bir strateji əhəmiyyətli açılış mərasimi - Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi gerçəkləşdi. Bu açılış hər şeydən öncə Azərbaycan xalqının ermənilərdən fərqli olaraq bu torpağın əsl sahibi kimi qurub-yaratmaq əzminin, dövlətimizin sülh, sabitlik və əməkdaşlıq niyyətinin, Azərbaycan liderinin əzminin, revanşist məqsədlərdən əl çəkməyən düşmən və havadarları qarşısında qətiyyətinin göstəricidir.

Deputat vurğuladı ki, Türkiyə Prezidentinin bu mərasimdə iştirak etmək üçün yenidən ölkəmizə gəlməsi isə iki ölkə qardaşlığının sarsılmazlığının dünyaya bir daha bəyan olunmasıdır: "Ümumiyyətlə, hava limanının açılışı və Türkiyə Prezidentinin mərasimə qatılması dünyanın gözü önünə Ermənistan və havadarları ilə Azərbaycanın və strateji tərəfdaşının nə qədər fərqli olduğunu gətirir. Bizim tərəfdaşlığımızın nəticəsi qurulan, abad edilən, narkotika plantasiyalarından və narkotranzitdən mədəniyyət mərkəzinə çevrilən Qarabağ və Şərqi Zəngəzurdur".

Azərbaycan-Türkiyə əməkdaşlığının bölgəyə rifah gətirdiyini deyən deputat əlavə etdi ki, bu, hərbi müttəfiqlik bölgədə sülh, sabitlik və istiqrar üçün təminatdır: "Ermənistan və havadarlarının birliyi isə sülh və tərəqqi üçün ən böyük təhdiddir. Elə Fransa Prezidenti Makronun son bəyanatlarının timsalında bir daha əmin olduq ki, Ermənistanın "Böyük bacısı" və əsas havadarı olan Paris faktiki olaraq regionda sülh və sabitlik arzulamır. Nəinki arzulamır, həm də mövcud əməkdaşlıq şansları və ilkin etimad mühitini dağıtmaq üçün əlindən gələni əsirgəmir".

Bəhruz Məhərrəmov dedi ki, Zəngilan Beynəlxalq Hava Limanının açılışında birgə iştirak fonunda Azərbaycan-Türkiyə qardaşlığı, liderlərin birlikdə reallaşdırdığı layihələrlə nümayiş olunan güc göstəricisi Fransa Prezidenti Emmanuel Makron kimi cılız, məğlub "lider"lərə, o cümlədən təcavüzkar niyyətlilərə ən yaxşı cavabdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Xarici KİV nümayəndələri Gəncədə erməni terroru qurbanlarının xatirəsini anıblar





Özbəkistan, Gürcüstan və Moldovanın bir qrup media nümayəndəsi Gəncə şəhərində Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində həlak olan mülki əhalinin xatirəsini anıblar.

AZƏRTAC xəbər verir ki, media nümayəndələri Vətən müharibəsi dövründə Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində Ə.Rəfibəyli küçəsi, "Qələbə" parkının yaxınlığında dağılan ərazini ziyarət edib, həlak olan dinc sakinlərin xatirəsini anıblar.

Bildirilib ki, humanitar atəşkəs rejiminin tətbiq edilməsinə baxmayaraq, 2020-ci il oktyabrın 11-də gecə saat 2 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərində çoxmənzilli yaşayış binaları raket atəşinə tutulub. Hadisə nəticəsində 4-ü qadın olmaqla 9 nəfər həlak olub, 35 nəfər isə yaralanıb. Yaralananlardan biri də sonradan xəstəxanada ölüb.

Ümumiyyətlə, Azərbaycan Respublikasının 2-ci böyük şəhəri olan Gəncəyə 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərində, xüsusilə gecə saatlarında əhalinin yatdığı vaxt xaincəsinə təşkil olunmuş hücumlar nəticəsində 10 nəfəri kişi, 10 nəfəri qadın və 6 nəfəri uşaq olmaqla 26 nəfər dinc sakin qəsdən öldürülüb, 6 ailə tamamilə məhv edilib. Xəsarət alanlardan 86 nəfəri kişi, 57 nəfəri qadın, 32 nəfəri uşaq olmaqla, 175 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb, onlardan 24 nəfəri 60 yaşdan yuxarı, 21 nəfəri 5-18 yaşarası, 11 nəfəri 5 yaşadək olub.

Xarici jurnalistlər fotolar çəkərək hazırlayacaqları reportajlar üçün qeydlər aparıblar.

# ZƏFƏR gündəliyi

## 21 oktyabr 2020-ci il

Gecə cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edir. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutur.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnika üzrə itki verərək geri çəkilməyə məcbur edilir.



5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilir, çoxlu sayda silah və sursat qənimət götürülür. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborunun komandiri taborun şəxsi heyəti ilə birlikdə məhv edilir. 6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar olur. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da var. Döyüşlərdə 3 ədəd artilleriya qurğusu, bir neçə minaatan, şəxsi heyətlə birlikdə 3 ədəd yük avtomobili sıradan çıxarılır.

Qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun ərazisini artilleriya qurğularından atəşə tutur.

❖ ❖ ❖

Saat 12:00 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən Horadiz istiqamətində məhv edilir.

❖ ❖ ❖



Saat 12:55-dən 13:30-dək Ermənistan silahlı qüvvələrinə məxsus daha 3 taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilir.

PUA-dan ikisi cəbhənin Füzuli istiqamətində, biri isə Tərtər istiqamətində vurulub.

❖ ❖ ❖

Müdafiə Nazirliyi düşmənin döyüş meydanında atıb-qaçdığı, həmçinin bölmələrimiz tərəfindən məhv edilən növbəti hərbi texnikalarını nümayiş etdirir.



❖ ❖ ❖


İlham Əliyev
Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün,

İlham Əliyev
Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

İlham Əliyev
Rəşadətli Azərbaycan ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini,

İlham Əliyev
Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev rəsmi tviter səhifəsində xalqa ard-arda müjdəli xəbərlər verir.

Prezdentin ilk paylaşımında qeyd edilir: "Rəşadətli Azərbaycan Ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Ali Baş Komandanın növbəti paylaşımında isə qeyd edilir:

"Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verir. Dövlət başçısı vurğulayır ki, artıq vəziyyət dəyişib. Satus-kvo, təmas xətti mövcud deyil. Ona görə də indi Ermənistan rəhbərliyi daha da məntiqli davranmalıdır və işğal edilmiş ərazilərin boşaldılmasına sadiq olmalıdır:

"Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir. Buna görə də, əlbəttə ki, onlar daha məntiqli davranmalıdırlar və birmənalı olaraq ərazilərin işğaldan azad edilməsi baş verir. Biz buna sülh danışıqları vasitəsilə nail olmaq istəyirdik. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi və təhrikedici addımlarına görə bu mümkün olmamışdır. Buna görə biz indi döyüş meydanında ərazilərimizi azad edirik".

Prezident həmçinin deyir ki, Ermənistanın "cəsur ordusu" haqqında bütün mifləri sadəcə bir növ feyk idi. Çünki bu gün həmin ordu Azərbaycanın igid oğulları qarşısında tab gətirməyərək geri qaçır: "Biz onlara qalib gəlirik və onlar bizim torpaqlardan çıxana kimi bunu etməyə davam edəcəyik".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Qarabağ uğrunda bütün xalqlar Komandanın ətrafında səfərbər oldular



Bakı Şəhər İcra Hakimiyyətinin nəşr etdiyi "ZƏFƏR MEMUARLARI. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitabından istifadə olunub



**HUDULOV RAMAZAN İZZƏT OĞLU**
**Vətən Müharibəsi Qəhrəmanı, kapitan**

*1994-cü il noyabrın 24-də Balakən rayonunun Qaysa kəndində avar ailəsində anadan olub. Məhəmməd Hudulov adına Meşəşambul kənd tam orta məktəbinin məzunudur.*

*2012-2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə taqım komandiri vəzifəsində xidmətə başlayıb, Xocavənd istiqamətində bölük komandiri, Füzuli cinahında tabor komandirinin müavini, Şuşa istiqamətində tabor komandiri vəzifəsində döyüşlərdə iştirak edib.*

*Vətən müharibəsinin iştirakçısıdır.*

*Vətən Müharibəsi Qəhrəmanıdır.*

*"Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.*

***Cənab Ali Baş Komandan məni "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif edib, amma mənim üçün ən böyük qəhrəman, baş sərkərdə İlham Əliyevin özüdür!***

***Məhz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Qarabağda şanlı zəfər qazanaraq, yenilməz ordu kimi adını silinməz hərflərlə hərb tariximizə yazdırdı.***

***44 günlük bu müharibədə digər amillərlə yanaşı, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi də qələbə çaldı.***

Azərbaycanda türklər, ləzgilər, avarlar, talışlar, ruslar, yəhudilər, tatlar və digər xalqların nümayəndələri əsrlərdir mehriban ailənin üzvü kimi yaşayırlar.

Mən də avar xalqının nümayəndəsiyəm, Azərbaycan vətəndaşıyam.



Bizim bir adımız var - biz azərbaycanlıyıq!

Azərbaycanlı olmağımızla hər birimiz həmişə fəxr etmişik, bu gün də fəxr edirik. Bu birlik, bu dostluq, bu qardaşlıq qələbəyə gedən yolda daha da möhkəmləndi, daha da bərkidi.

Zəfərdən sonra Şuşada keçirilən "Xarıbülbül" festivalında isə bir daha hər birimiz Ulu Öndərin bu müdrik kəlamını qürurla təkrarladıq: "Mən fəxr edirəm ki, azərbaycanlıyam!"

## Bir gün mütləq düşməndən qisas almağı arzulayırdım

Atam təsərrüfatçıdır, anam evdar qadın. Ailədə bir bacı, üç qardaşıq. Məktəbi yaxşı qiymətlərlə oxuyub bitirmişəm. Daha çox dəqiq fənlərə - fizikaya, riyaziyyata həvəsim olsa da, tarixi də sevir, xüsusilə Vətən tariximizi maraq və diqqətlə oxuyurdum. Elə bəlkə də hərb sənətinə olan həvəsim bu fənni sevməyimdən qaynaqlanıb.

Hələ məktəb illərindən kitablarda, televiziya verilişlərində faşist xislətli ermənilərin xalqımıza qarşı törətdiyi vəhşilikləri, soyqırımlarını görüb üzülür, eyni zamanda da ürəyimdə düşmənə nifrət hissi oyanırdı. Özümə söz vermişdim ki, bir gün mütləq düşməndən qisas alacağam.

Həyat elə gətirdi ki, bu istəyimi reallaşdırmaqdan ötrü hərbçi oldum. Əminliklə bilirdim ki, hər necə olursa-olsun, tezliklə düşməndən intiqamımızı alacağıq.

Dünyanın ən müasir silahları ilə təmin olunan və hərtərəfli inkişaf etdirilən Azərbaycan Ordusunun gündən-günə güclənməsi isə bu əminliyi ikiqat artırırdı. Hərbi kadr hazırlığına da xüsusi diqqət yetirilirdi.

## Allaha yalvarırdıq ki, Ali Baş Komandan bizə "İrəli!" komandası versin

Məzunu olduğum Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində gələcək zabitlərə yüksək səviyyədə təhsil verilir. Bu təhsil müəssisəsində sərbəst məşğul olmaq, öz üzərində işləmək üçün də çox yaxşı şərait yaradılıb. Oxuduğum müddətdə hər hansı fənlə, mövzu ilə əlaqədar müəllimlər tərəfindən əlavə dərs saatları təyin olunur, biz də həmin dərslərdə böyük həvəslə iştirak edirdik. Silahlarla, texnikanı idarə etməklə bağlı təlimlərimiz olurdu. Bir sözlə, Ali Hərbi Məktəbdə hərbçini bütün sahələr üzrə mükəmməl yetişdirmək üçün yüksək şərait mövcuddur.

2016-cı ilin Aprel döyüşləri zamanı 4-cü kursda oxuyurdum. Gecə bizə məlumat verdilər ki, "hər an hazır olun…"

Sevinc və səbirsizliklə gözləyirdik ki, indi komanda veriləcək, biz də döyüşə yollanacağıq. Amma o zaman bu şərəfli missiya bizə qismət olmadı…

2018-ci ilin Günnüt əməliyyatı zamanı isə artıq Beyləqan istiqamətində "N" saylı hərbi hissədə zabit kimi xidmət göstərirdim. Ön xətdə olduğumuz üçün hər an düşmən müdaxiləsinin qarşısını almaqdan ötrü hazır vəziyyətdə idik, amma o zaman da döyüşmək nəsibimiz olmadı. Lakin hər iki döyüş zamanı Azərbaycan Ordusunun qəhrəman döyüşçüləri şanlı qələbə çalaraq ürəklərimizdəki qisas hissinin üzərinə su çilədilər. Üst-üstə iki dəfə yerinə otuzdurulan düşmən isə, görünür, bu biabırçı məğlubiyyətlərindən dərs almayaraq, yenidən 2020-ci ildə Tovuz istiqamətində təxribatlara əl atdı. Tovuz döyüşləri zamanı generalımız Polad Həşimovun şəhid olması isə bütün əsgər və zabit heyətimizin dərin sarsıntısına səbəb oldu. İçimizdə düşmənə qarşı intiqam hissi o qədər artmışdı ki, Allaha yalvarırdıq ki, Ali Baş Komandan bizə "İrəli!" komandası versin, gedib şəhidlərimizin qisasını alaq.



Şükür Allaha ki, Ali Baş Komandan İlham Əliyev 27 sentyabr 2020-ci ildə bu intiqam meydanını bizə verdi. Çox qürurluyduq, arzuladığımız "İrəli!" komandasını almışdıq. Bu mərhələyə qədər Ali Baş Komandan bütün lazımi işləri həyata keçirərək ordunu hərtərəfli gücləndirmiş və yalnız bundan sonra hünər meydanını bizim ixtiyarımıza vermişdi.

Bizim də öhdəmizə düşən Qarabağı azadlığa qovuşdurub, Ali Baş Komandanın yüksək etimadını doğrultmaq və xalqımıza qələbə bəxş etmək idi.



## Amalımız bir idi - yalnız irəli getmək…

Sentyabrın 27-də Beyləqan istiqamətində bölük komandiri idim və ön xətt bölmələri idik deyə, müdafiədə qərarlaşmışdıq. Müharibənin başlanacağını əvvəlcədən bilmirdik. Sentyabrın 27-si səhər saatlarında düşmənin növbəti hərbi təxribatından sonra aviasiya qüvvələrimiz havaya qalxaraq təmas xəttini keçdi və erməni mövqelərini vurmağa başladı.

Əmr verilən zaman biz də Xocavənd istiqamətindən döyüşlərə başladıq və tez bir zamanda bir neçə düşmən postunu işğaldan azad etdik. Beləliklə, ard-arda hücuma keçir, torpaqlarımızı azad edirdik.

Oktyabrın 17-də "N" saylı hərbi hissənin tabor komandirinin müavini vəzifəsinə təyin olundum. Həmin zamandan etibarən Füzuli istiqamətində döyüşlərə başladım. Füzuli rayonunun Dövlətyarlı kəndində yüngül yaralandım, amma bu, döyüşləri davam etdirməyimə mane olmadı. Ard-arda iki minaatan atdılar, birincisindən yayındım, sonra ikincini atdılar, ikimetrlik məsafəmə düşdü. Beş qəlpə yarası aldım. Sağ olsunlar, həkimlərimiz tez müdaxilə edərək yaralarımı bağladılar və döyüş əməliyyatımıza davam etdik.

Döyüşlər zamanı bütün əsgər və zabit heyətinin yalnız bir fikri var idi: nə olursa-olsun, yalnız irəli getmək. Həmin həvəs, eyni zamanda əsgərlərimin yanında olmaq istəyi ilə mən xəstəxanaya getməkdən imtina etdim və yenidən döyüşdə iştirak etməyə başladım. Füzuli istiqamətində verilmiş tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirildikdən sonra taborumuz Şuşa istiqamətində irəliləməyə başladı.

## Daşaltı ətrafındakı bütün yüksəklikləri azad etdik

Müəyyən məsafəni texnikalarla, sonra isə piyada hərəkət etdik. Dağ, dərə və sıx meşəliklərlə 20 kilometrə qədər yolu piyada qət etdikdən sonra noyabrın 4-də Daşaltı kəndinə yaxın yerdə qərarlaşdıq. Həmin ərəfədə - Daşaltı istiqamətində fəaliyyətə başlayanda ərazi kəşfiyyatına çıxıb tapşırıqları dəqiqləşdirən zaman tabor komandirimiz minaatan atəşi nəticəsində qolundan qəlpə yarası aldı. O, hospitala təxliyə olunandan sonra tabor komandirinin vəzifələrini mən icra etməyə başladım, məsuliyyətim ikiqat artdı.

Birinci Qarabağ müharibəsindən də məlumdur ki, Daşaltı çətin ərazi olub, orada ağır döyüş əməliyyatları gedib. Düşmən oradakı bütün yüksəkliklərdə möhkəmlənmişdi. Noyabrın 5-i səhər saat 6-da hücuma başladıq. İlk olaraq, plana əsasən, dövrələmə üsulu ilə Daşaltı ətrafındakı bütün yüksəklikləri ələ keçirdik. Bircə Şuşa istiqamətində olan qayalıqlardakı yüksəkliklər qalmışdı.

Azad etdiyimiz yüksəkliklərdə öz şəxsi heyətimizi yerləşdirirdik ki, düşmənin hər hansı müdaxiləsi olarsa, oranı qoruyub saxlasınlar, eyni zamanda bizim təhlükəsizliyimizi təmin etsinlər.

Noyabrın 5-i axşamüstü komanda verildi ki, Daşaltının içində olan qüvvələri məhv etmək üçün ora girmək lazımdır. Özümlə 27 nəfər götürüb həmin istiqamətdə irəliləməyə başladım.

Hava dumanlı idi, hətta yarım metr irəlini belə görmək mümkün deyildi. Biz birbaşa kəndin içərisinə gedən cığırla bir kolon şəklində hərəkət edirdik. Qrupun başında da mən gedirdim. Yolun ortasına çatanda partlayış səsi gəldi, arxamdakı əsgərin "komandir, vuruldum" sözlərini eşitdim, hamını saxladım. Elə bu an yenə partlayış səsi eşidildi və məndən arxada olan 4-cü əsgər də yıxıldı.

İlk saniyələrdə zənn etdik ki, düşmən bizi hər iki tərəfdən pusquya salıb qumbaraatanla atəş açır, çünki partlayış zamanı alov gördüm. Amma ikinci partlayışdan sonra məlum oldu ki, minalanmış sahəyə düşmüşük. Komanda verdim ki, bütün



əsgər heyəti dayansın və yerindən tərpənməsin. Amma uzun kolonla hərəkət etdiyimiz üçün arxadakı şəxsi heyət səsimi yaxşı eşitmədi. Partlayış səsindən sonra özlərini bir anlıq itirib arxaya atanda yenidən tank əleyhinə minaya düşdülər, orada 5 nəfərimiz şəhid oldu, 13 nəfər yaralandı. Yerdə qalan şəxsi heyətin hamısı partlayış səsindən qulağından, başından travma almışdı. Haradasa 2 saata yaxın tərpənməz vəziyyətdə həmin sahədə qaldıq.

Biz hücuma keçəndə qruplarımız çox arxada qalmışdı və yanımızda maşın yolu olmadığı üçün bizə gəlib çatmaları gec olardı. Yaralılarımız var idi ki, onlar şəhid ola bilərdilər. Ona görə özümüz həmin minalanmış sahədən 50 santimetr enində, 30 metr məsafədə cığır açdıq. Əvvəlcə hamımız təhlükəli ərazidən çıxdıq, daha sonra səhər saat 6-dan 7-yə qədər birbir yaralıları dağlıq relyeflə iki yüksəklik yuxarıdakı mövqelərimizə təxliyə etdik. Şükür Allaha ki, yaralı olan bütün şəxsi heyətimiz xilas oldu, hazırda da hamısı yaşayır.

## Noyabrın 6-sı Laçın yolu bağlandı, düşmənin təminatı kəsildi

Daha sonra tapşırıq verildi ki, Şuşanın alınması üçün Laçına gedən yol tutulmalı, düşmənin təminatı dayandırılmalıdır. Buna görə də biz Daşaltıya girmədik və soldakı yüksəkliklərlə, qayalıqlarla yuxarıya doğru hərəkət etməyə başladıq. Deyim ki, biz bu is



tiqamətə üç taborla hücuma başlamışdıq. Polkovnik Tehran Mənsimov da sağımdakı tabora rəhbərlik edirdi. Tehran Mənsimovun taboru Daşaltının içi ilə keçib gedəndə düşmənin güclü müqaviməti ilə qarşılaşdılar. Düşmən yüksəkliklərdə yerləşmişdi.

Həmin vaxt düşmənin diqqəti əsasən Daşaltıya girən qüvvələrimizdə olduğu üçün bizi gec sezdilər. Həm də ərazi qırışları ilə getdiyimiz üçün bizi vurmaq onlar üçün asan deyildi.

Qayalığa çıxanda Tehran Mənsimov əlaqəyə keçdi və mənim 13 nəfər şəxsi heyətim olduğunu öyrənib dedi ki, dərhal Laçından gələn yolu bağla. Yolu bağlamaqla yanaşı, düşməni arxa tərəfdən mühasirəyə aldıq. Xeyli sayda texnikaları, tankları var idi, hamısını zərərsizləşdirdik. Canlı qüvvə sarıdan da ağır itki verərək qaçmağa başladılar. Biz isə sadəcə yüngül silahlarla silahlanmışdıq.

Noyabrın 6-sı səhər saat 8-də başladığımız əməliyyat axşam saat 6-da uğurla başa çatdı: Laçın yolu bağlandı, düşmənin təminatı kəsildi.

Elə bu uğurlu əməliyyatıma görə Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüm.

## Şuşanın azad olunması üçün heç bir maneə qalmamışdı

Artıq bundan sonra Şuşanın azad olunması üçün heç bir maneə qalmamışdı: yalnız mühasirədə olan düşməni məhv etməli idik. Biz Laçın yolunu azad edən zaman Xüsusi Təyinatlı Qüvvələrin bir neçə bölüyü də düşmən arxasında dövrələmə edərək Şuşaətrafı mövqeləri, əsas yüksəklikləri ələ keçirmişdi.

Beləliklə, Şuşa üzərinə hücum başlandı. Əvvəlcə şəhərə xüsusi təyinatlılar girdilər və tez bir zamanda Şuşanı düşməndən azad etdilər. Sonra biz də şəhərə girdik və mövqe qurduq. Düşmən bir neçə dəfə çoxsaylı qüvvə ilə bizə əks-həmlə etdi, lakin hər dəfə ağır məğlubiyyətə uğradı.

Demək olar ki, onların heç bir qüvvəsi qalmadı, bütün şəxsi heyəti tələfata uğradı, texnikası məhv oldu. Bununla da düşmən başa düşdü ki, təzədən Şuşanı ələ keçirmək mümkün deyil və hücumdan əl çəkdi. Noyabrın 8-də isə Şuşa tamamilə azad idi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bütün bu uğurlu əməliyyatlar düşməni kapitulyasiya aktına imza atmağa məcbur etmişdi.

## Ali Baş Komandanın sərkərdə qətiyyəti sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu

Qələbə hissinin izahı mümkünsüzdür. Bircə onu deyə bilərəm ki, bəlkə də həyatımda bir də heç zaman bu cür ali hisslər yaşamayacağam. Bütün döyüş tapşırıqlarını müvəffəqiyyətlə icra edərək Qarabağı azadlığa qovuşdurmuş, xalqımıza qələbə sevinci yaşatmış və cənab Ali Baş Komandanın Azərbaycan Ordusuna, onun hər bir döyüşçüsünə göstərdiyi etimadı doğrultmuşduq. Bundan böyük xoşbəxtlik olardımı?!

Bu qələbə həm də Qarabağ uğrunda döyüşərək şəhid olan qardaşlarımızın ruhuna ərməğan idi. O qəhrəman döyüşçülərin hər biri ürəyimizdə, qəlbimizdə daim var olacaq, yaşayacaqlar. Allah onlara rəhmət etsin!

Artıq düşmən yerinə otuzdurulub və 30 il müddətində erməni tapdağında qalan Qarabağda dirçəliş həyata keçirilir. Necə ki Ali Baş Komandanın sərkərdə qətiyyəti sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa edildi, hazırda müdrik siyasətçi cənab İlham Əliyevin birbaşa rəhbərliyi altında azad edilən yurdlarımıza da həyat qayıdır.

Şuşada da böyük layihələr gerçəkləşdirilir, tikinti-quruculuq işləri həyata keçirilir, yollar çəkilir, şəhərin qədim tarixi bərpa olunur. Hazırda azad olmuş ərazidəki "N" saylı hərbi hissədə tabor komandiri vəzifəsini icra edirəm.

Çox qürurluyam ki, həm strateji, həm də xalqımızın qəlbində özünəməxsus yeri olan əhəmiyyətli bir məkanın müdafiəsinin təşkili kimi fəxarətli bir vəzifəni mənə həvalə ediblər və mən də göstərilən bu yüksək etimadı layiqincə doğrultmağa çalışıram.



## Komandan qarşısında nitq

2021-ci il aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qarşısında çıxış etmək şərəfinə nəsib oldum.

Nitqimdə söylədim: "Cənab Prezident, Siz vaxtilə demişdiniz ki, müasir, mütəşəkkil ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. İndi isə mən rəşadətli, qalib bir ordunun şəxsi heyəti adından böyük qürur hissi ilə deyirəm: Azərbaycan Ordusunun, qalib ordunun səviyyəsinin yüksəldilməsi, ordumuzun bütün güclü dünya orduları sırasında yer alması şəxsən Sizin, Müzəffər Ali Baş Komandanımızın adı ilə bağlıdır. Bu müharibədə digər amillərlə yanaşı, Ulu Öndərimizin azərbaycançılıq məfkurəsi də qələbə çaldı, cənab Prezident.

Azərbaycan monoetnik dövlət olan Ermənistandan fərqli bir dövlətdir, tolerant bir ölkədir. Burada bir çox xalqların nümayəndələri - türklər, ləzgilər, avarlar, talışlar, ruslar, yəhudilər, udilər, tatlar və digər xalqların nümayəndələri mehriban bir ailənin üzvü kimi yaşayırlar. Mən avar xalqının nümayəndəsiyəm. Mən Azərbaycan vətəndaşıyam. Bizim bir adımız var, biz azərbaycanlıyıq! Azərbaycanlı olmağımızla hər birimiz həmişə fəxr etmişik, bu gün də fəxr edirik. Bu birlik, bu dostluq, bu qardaşlıq qələbəyə gedən yolda daha da möhkəmləndi, daha da bərkidi.

Cənab Prezident, mən Xocavənd, Füzuli uğrunda döyüşlərdə, Qarabağımızın tacı olan Şuşa şəhərinədək döyüş yolu keçmişəm. Daşaltı uğrunda gedən ölüm-qalım savaşında tabor komandirimiz ağır yaralandıqdan sonra ekstremal vəziyyətdə tabor komandiri kimi, çətin, məsuliyyətli vəzifənin ağırlığını öz üzərimə götürərək qarşımıza qoyulan mühüm döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsinə nail olmuşuq. Siz isə bütün xidmətlərimi nəzərə alaraq, məni ən yüksək fəxri ada - "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görmüsünüz".

***Həmin gün Müzəffər Komandanıma söylədiklərimi bu gün də bəyan edirəm: Bu ali etimadı bundan sonra da Vətənimizə, dövlətimizə, millətimizə, öz doğma Azərbaycanımıza sədaqətli xidmətimlə doğruldacağam.***



# Şuşada Türk Dövlətləri Təşkilatının Müsəlman Dini İdarələrinin Rəhbərləri Şurasının Əsasnaməsi imzalanıb

**Oktyabrın 20-də Şuşada Türk Dövlətləri Təşkilatının Müsəlman Dini İdarələrinin Rəhbərləri Şurasının görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Şuranın Əsasnaməsi imzalanıb.

Sonra Türk Dövlətləri Təşkilatının Müsəlman Dini İdarələrinin Rəhbərləri Şurasının birgə bəyanatı qəbul edilib.

Bəyanatda bildirilib ki, müsəlman dini liderlər üzv dövlətlərdə sosial, dini və mənəvi mühitin və din-dövlət münasibətlərinin təkmilləşdirilməsi üçün müvafiq qurumlar arasında əməkdaşlığın və əlaqələndirilmənin möhkəmləndirilməsi, birgə layihələrin inkişaf etdirilməsinə çalışacaq, türk-islam mədəniyyətinin inkişafı, zənginləşdirilməsi və təşviq edilməsi üzrə müvafiq birgə layihələr hazırlayacaqlar. Onlar həmçinin türk-islam əxlaqının təhrif edilməsinin, xurafatların, digər dini və etnik qruplara qarşı mərhəmətlə və ədalətli davranan türk xalqları və müsəlmanlar haqqında stereotiplərin və yanlış məlumatların yayılmasının qarşısını almağa çalışacaq, dini təhsilin və milli özünüdərketmənin təkmilləşdirilməsi üçün birgə elmi və dini mərkəzlər yaratmaq, yetişməkdə olan nəslə əsl mənəvi dəyərləri ötürmək, tələbə, müəllim, ədəbiyyat və təcrübə mübadiləsinə, həmçinin dini təhsil müəssisələri arasında dini və elmi tədqiqatların inkişafına kömək edəcəklər.

Eyni zamanda dini liderlər kütləvi informasiya vasitələri, televiziya və digər informasiya texnologiyaları vasitəsilə irqi, dini və etnik zorakılığa təhrik edən nifrətin qızışdırılmasına birgə müqaviməti təmin etmək, xüsusilə bu sahədə gənclərin maarifləndirilməsi, habelə türk dünyasının dini, əxlaqi və humanitar dəyərləri, tolerantlıq ənənələri və multikulturalizmi də daxil olmaqla TDT prinsipləri əsasında terrorizm, ekstremizm, separatizm, ksenofobiya, antiislamizm və türkofobiya meyillərinin aradan qaldırılması üçün birgə səylər göstərəcəklər.

Həmçinin türk dövlətlərinin dini və mənəvi mühitinə xarici müdaxilə hallarının, xarici və zərərli təbliğatın, təkfirçilik ideologiyalarını daşıyan radikal cərəyanlar, dini və irqi dözümsüzlük və siyasi məqsədlər üçün dindən sui-istifadə daxil olmaqla, hər hansı ideoloji təxribatların qarşısının alınması üçün birgə səylər davam etdiriləcək.

Dini liderlər vurğulayıblar ki, müsəlmanlar və digər dinlərin nümayəndələri ilə birgəyaşayış mədəniyyətini inkişaf etdirəcək, qoruyacaq və gücləndirəcək, dini azadlıqların müdafiəsi sahəsində TDT-nin üzvü olan dövlətlərin dini etiqad azadlığı haqqında qanunvericiliyi və bu sahədə tətbiq olunan digər normativ hüquqi aktlar çərçivəsində əməkdaşlıq edəcəklər.

Bundan başqa, onlar türk dövlətlərində, o cümlədən Azərbaycanın işğaldan azad olunmuş ərazilərində zorakılıq, vandalizm və təbii fəlakət aktları nəticəsində zərər çəkmiş tarixi, dini və mədəni abidələrin bərpası üzrə birgə işlər görəcəklər. Şuranın üzvləri eyni zamanda dini ədəbiyyatın və tədqiqatların türk dillərinə tərcüməsi və onların qanunvericiliyə və milli adət-ənənələrə uyğun təbliğində əməkdaşlıq edəcək, müvafiq metodologiya və vasitələrin mübadiləsi və onların inkişafına yönəlmiş birgə təlim seminarları, islam dininin elmi əsaslarının öyrənilməsi və türk dünyasının mədəni irsi ilə bağlı birgə konfranslar, simpoziumlar və digər tədbirlər təşkil edəcəklər.

Dini liderlər türk dünyasının dini, etnik və ənənəvi mahiyyətini təmsil edən bayramların və əlamətdar tarixlərin təbliğində fəal rol oynayacaq, onların, o cümlədən görkəmli din, elm, mədəniyyət xadimləri və mütəfəkkirlərin yubileylərinin birgə keçirilməsi ilə bağlı təkliflər verməyi də öz üzərilərinə götürüblər.

Eyni zamanda ziyarət təşkilatları arasında təcrübə mübadiləsi üçün birgə iş aparılacaq, türk dövlətlərinin dini, mənəvi və mədəni irsinə aid təsdiqlənmiş nadir əlyazmaların nüsxələrinin mübadiləsini təşviq etmək, onların qorunması məqsədilə müxtəlif ölkələrin muzeylərinə birgə səfərlər təşkil olunacaq, beynəlxalq səviyyədə dini mərkəzlərlə əməkdaşlıq ediləcək, qaçqınlara, məcburi köçkünlərə, miqrantlara, müharibə və zorakılıq qurbanlarına, əlil veteranlara, uşaq evlərinə və cəzaçəkmə müəssisələrinə, təbii fəlakətlərin və ya digər fövqəladə halların qurbanı olan insanlara humanitar yardım göstəriləcək.




Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə deyib: "Türk-islam dünyasının qəhrəmanlıq qalası olan Şuşa türk coğrafiyasının mühüm hadisələrinin cərəyan etdiyi mərkəzə çevrilməkdədir. Bir millət, iki dövlət olan Azərbaycanla Türkiyə münasibətlərinin qardaşlıq və müttəfiqliyin zirvəsinə yüksəlməsində Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasının ağsaqqalı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə imzaladıqları Şuşa Bəyannaməsinin, heç şübhəsiz, mühüm tarixi əhəmiyyəti var".

Şuşanın hər bir azərbaycanlı üçün sözlə ifadə edilməyəcək qədər böyük dəyərinin olduğunu vurğulayan Şeyxülislam bildirib: "Bu gün Şuşada Türk Dövlətləri Təşkilatı Müsəlman Dini İdarə Rəhbərləri Şurasının Əsasnaməsinin imzalanması, birgə bəyanatın qəbul edilməsi öz növbəsində Şuşanın adının tarixin salnaməsinə türk-islam birliyinin mənəvi vəhdətinin rəsmiləşdiyi məkan kimi daxil olması deməkdir. Biz, dini liderlər birgə bəyanatımızı türk-islam sivilizasiyasının qədim mərkəzlərindən biri olan, 2022-ci ildə Azərbaycanın, 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan olunmuş Şuşada qəbul etməklə müqəddəs dinimizə, ortaq tarix, mədəniyyət və adət-ənənələrimizə olan dərin ehtiramımızı bir daha bütün dünyaya nümayiş etdirmiş olduq. Türk Dövlətləri Təşkilatının qəbul etdiyi, özəlliklə dini-mənəvi sahəyə dair qərar və tövsiyələrin həyata keçirilməsində fəal rol oynamaq əzmimizi bəyan etmiş olduq. Allahı, Quranı, qibləsi bir olan, eyni dildə danışan qardaş xalqlarımızın dini-mənəvi müstəvidə birlik olması bizim ümumi, ortaq mənəviyyatımızın dünya çapında, beynəlxalq platformalarda yetkin, nüfuzlu qurum olaraq qəbul olunmağımızı təmin edəcək".

Qeyd edilib ki, bugünkü Şuşa görüşü əlamətdar hadisə - işğaldan azad olunmuş Zəngilanda aeroportun açılışı ilə eyni günə təsadüf edir. Füzuli aeroportunun ardınca Qarabağın daha bir hava limanının açılış mərasimində Azərbaycan Prezidenti ilə bərabər qardaşı - Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan həzrətlərinin iştirak etməsi bizlərə qürur bəxş edir. Yenidən qurulan yollar, abad kənd və şəhərlər, hava limanları Azərbaycanın və ümumən türk birliyimizin rifah və gələcəyinə xidmət edəcəkdir, İnşallah. İslam və türk dünyasının tolerantlıq və multikulturalizm ənənələrinə sadiq Azərbaycan dövlətinin məscidlərlə yanaşı, kilsə və məbədlərə himayə və qayğısı türk mentalitetinin yüksək mənəvi statusunu dünya çapında əyani təsdiq edir. Bu gün azad Qarabağda dini-mənəvi abidələrin bərpa və yenidən qurulması, məscidlərimizin nəfis şəkildə bərpa edilməsi sahəsində həyata keçirilən yüksəksəviyyəli işlər möhtərəm Prezidentimizin qətiyyətli siyasi iradəsinin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəhmətlərinin nəticəsidir".

Qafqaz Müsəlmanları İdarəsinin sədri qeyd edib ki, Azərbaycan xalqı minlərlə şəhidimizin qanı ilə öz əzəli torpaqlarını azad edərək tarixi ədaləti bərpa etdi. Məscidlərimizdən azan səsləri ucalır, ata-baba torpaqlarımızda qurub yaradır və göz bəbəyimiz kimi qoruyuruq. İşğal dövründə müharibə cinayətlərindən çəkinməyən, Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədən, şəhər və kəndlərimizi məqsədyönlü şəkildə Yer üzündən silən, torpaqları qəsdən yandırıb yararsız hala salan, su hövzələrimizi zəhərləyən, qəbiristanlıqları dağıdan, məscid və məbədlərimizi yerləyeksan edən erməni vandalizminin izlərini bütün dünya görür, basdırdıqları minalar bu gün də yüzlərlə mülki şəxsin həyatına son qoymaqda davam edir. Erməni siyasi rəhbərliyi son sərhəd təxribatları ilə bağlı vurğuladı ki, vəziyyətə dini don geyindirmək cəhdləri qeyri-məqbuldur. Lakin həqiqət bundan ibarətdir ki, məhz erməni dini dairələri din adından nifrətə çağırışlar, qızışdırıcı bəyanatlar səsləndirməkdədirlər. Erməni Apostol Kilsəsi erməni revanşizminin önündə gedir, qisas təbliğatı, beynəlxalq müstəvidə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. Uzun illər ərzində erməni siyasi liderlərinin cinayətkar əməllərinə mənəvi haqq qazandıran erməni kilsəsinin rəhbərliyinin Xankəndiyə səfərlər edərək revanşist bəyanatlar səsləndirməsi böyük təəssüf doğurur. Bir əlində "İncil", bir əlində avtomat həyat deyil, ölümə, dinc birgə yaşayışa deyil, işğala, zülmə və zora xeyir-dua vermək dini dəyərlərlə bir araya sığmır, erməni xalqına vəd etdikləri səadət əvəzinə yeni faciələr gətirməkdədir. Nə qədər gec deyil, erməni kilsəsi Uca Yaradan qarşısında üzərinə düşən mənəvi missiyasını yerinə yetirərək, öz xalqının taleyini, ermənilərin tarixi müqəddəratını düşünərək müdriklik nümayiş etdirməli, xalqını məhvə sürükləmək əvəzinə onu xilas edəcək, ona nicat və tərəqqi gətirəcək ideyalar təlqin etməlidir. Buradan, azad Şuşadan erməni kilsəsinə, Eçmiədzinə səslənirəm - revanşizmə, nifrət və təxribatlara son qoyun. Uca Yaradan qarşısında mənəvi borcunuzdan çıxış edərək ölümə, yeni müsibət və faciələrə deyil, həyata çağırın! Yalan vədlər deyil, məhz həqiqətləri demək sizin erməni xalqı qarşısında ən böyük tarixi xidmətiniz olar.

Şeyxülislam bildirib ki, qalibiyyətli Vətən müharibəsi müstəqilliyimizin təntənəsinin təcəssümü oldu: "Azərbaycan Ordusunun gücünə, Azərbaycan xalqının sarsılmaz həmrəylik və iradəsinə, dövlət-xalq birliyinə güvənən müzəffər sərkərdə, Ali Baş Komandanın dünya miqyasında apardığı fəal, inamlı, dərin zəka və dəmir məntiqə əsaslanan siyasət Azərbaycanın haqq işinin davamlı qələbəsini təmin etdi. Uca Yaradanın köməyi, dövlət rəhbərimizin qətiyyəti, ordumuzun hünəri ilə Azərbaycanın dövlət bayrağı azad Qarabağda dalğalandı, məscidlərin minarələrindən azan səsləri ucaldı, müqəddəs məbədlərimiz əsarətdən qurtuldu. Azərbaycan Vətən müharibəsindəki Zəfərinin ikinci ildönümü ərəfəsindədir. Azərbaycan xalqının haqq mübarizəsinin qalibiyyət dastanını dünya tarixi səhifələrinə həkk etmiş, Azərbaycanı dünya çapında qalib ölkə, Azərbaycan xalqını zəfər çalmış xalq yüksəkliyinə qaldırmış, Qarabağ zəfərinin müəllifi olan zati-aliləri İlham Əliyevi biz, dini liderlər Türk Dövlətləri Təşkilatının iki yüz milyon müsəlmanı adından böyük qürur hissi ilə bu gün Şuşadan təbrik edir, bütün türk dünyası adına qazanılmış zəfərə görə dərin təşəkkürlərimizi birgə ifadə edirik. Zəfərimiz mübarək! Uca Allah Azərbaycan Prezidentini hər zaman müzəffər qərar versin, yeni zəfərlər nəsib etsin!", - deyə A.Paşazadə qeyd edib.

Diqqətə çatdırılıb ki, bu gün Şuşada islam həmrəyliyi, türk həmrəyliyi bayramıdır. Türk Dövlətləri Təşkilatı ölkələrinin müsəlman dini liderlərinin yekdil rəyi və xeyir-duaları ilə şuranın gerçəkləşməsi Uca Allahın lütfü, böyük mənəvi uğurdur.

Sonra çıxış edən Türkiyə Diyanət İşləri Başkanı Əli Erbaş, Özbəkistan müftisi Nuriddin Xoliknazarov, Qazaxıstanın baş müftisi Naurızbay Taqanulı, Qırğızıstan müftisi Zamir Rakiyev, Türkmənistan müftisi Yalkab Xocaquliyev, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini liderləri 44 günlük Vətən müharibəsində qazanılan Zəfər münasibətilə dövlətimizin başçısı və xalqımızı təbrik edib, Şuşanın Azərbaycan və türk dünyası üçün əhəmiyyətini vurğulayıblar.

Görüşdə Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev Türk Dövlətləri Təşkilatının Müsəlman Dini İdarələrinin Rəhbərləri Şurasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür məktubunu oxuyub.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

# Türk Dövlətləri Təşkilatının müsəlman dini liderləri Şuşanın tarixi məkanları ilə tanış olublar

**Oktyabrın 20-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini liderləri Şuşada tarixi məkanlarla, həmçinin burada aparılan bərpa-quruculuq işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, onlara Şuşa şəhəri, burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verilib.

Dini liderlər şəhərin mərkəzi meydanında Azərbaycan mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini ziyarət edib, Şuşa şəhər qala divarları ilə tanış olublar.

Qonaqlar daha sonra Cıdır düzünə gedərək, oradan açılan əsrarəngiz mənzərəni seyr ediblər.








# XİN: "ATƏT sədrliyinin və katibliyinin məsləhətsiz birtərəfli hərəkəti etimad quruculuğunun əsas prinsiplərinə ziddir"

**"Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Katibliyinin "ATƏT-in ehtiyacların qiymətləndirilməsi missiyası" adlandırılan qrupun Ermənistana göndərilməsi ilə bağlı qeyd edək ki, belə bir missiya məsələsi ATƏT-in hər hansı bir kollektiv qərar verici orqanı tərəfindən heç zaman müzakirə olunmayıb və nəticədə bu barədə heç bir qərar qəbul edilməyib.**

Bununla da "ATƏT-in Ermənistana ehtiyacların qiymətləndirilməsi missiyası" adlandırılan hər hansı bir qrup ATƏT mandatına malik deyil, ATƏT-lə heç bir şəkildə əlaqələndirilə bilməz, onun heç bir nəticəsi və ya hesabatı ATƏT sənədi kimi qəbul edilməyəcək.

Ermənistanın irəli sürdüyü bu birtərəfli təşəbbüs bir neçə iştirakçı dövlətdən olan bir qrupun şəxsi səfərindən başqa bir şey deyil və belə bir səfərin istənilən nəticəsi müvafiq olaraq qiymətləndiriləcək".

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin "ATƏT-in ehtiyacların qiymətləndirilməsi missiyası" adlandırılan qrupun Ermənistana göndərilməsi məsələsi ilə bağlı şərhində qeyd edilib.

Bildirilib ki, 30 ilə yaxın bir müddətdə Azərbaycana qarşı hərbi təcavüzün dayandırılması və onun ağır nəticələrinin aradan qaldırılması istiqamətində səylərin, eləcə də hətta keçmiş Ermənistan-Azərbaycan münaqişəsinə aid olmayan məsələlər ilə bağlı missiyaların ATƏT tərəfindən bir qayda olaraq konsensusa istinadla qarşısının alınması kontekstində bu addım ciddi sual doğurur.

"Fakt budur ki, ATƏT-in 2005-ci və 2010-cu illərdə Azərbaycanın o zaman işğal altında olan ərazilərinə iki missiyasının Ermənistanın aşkar destruktiv mövqeyinə görə ATƏT çərçivəsində konsensusla razılaşdırılması illər çəkmişdi. Azərbaycanın işğal olunmuş ərazilərində saysız-hesabsız qeyri-qanuni fəaliyyət, o cümlədən bu ərazilərdə qanunsuz məskunlaşma faktları nəzərə alınaraq, 2020-ci ilə qədər Azərbaycanın növbəti belə missiyası ilə bağlı müraciəti yenə də Ermənistanın müqaviməti nəticəsində baş tutmayıb.

ATƏT sədrliyinin və katibliyin bu cür məsləhətsiz birtərəfli hərəkəti digər məsələlərlə yanaşı, tərəflərin razılığını, vasitəçilərin qərəzsizliyini və dövlətlərin beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə riayət olunmasını tələb edən hər hansı məsuliyyətli və etibarlı vasitəçiliyin və etimad quruculuğunun əsas prinsiplərinə ziddir", - deyə açıqlamada vurğulanıb.

# Oxşarı olmayan alovlu şair

**Elə insanlar var ki, mütləq onların bir bənzəri olur. İnsanın oxşarının olması adi haldır. Amma şair, istiqlal mücahidi Xəlil Rza bəlkə də bu dünyada yeganə oxşarı olmayan insandır. Bənzərsizdir! Onun oxşarı yalnız özüdür. Əslində Xəlil Rza daha çox təbiətə bənzəyirdi. Gah sel kimi guruldayır, daşır, gah da ildırım kimi çaxırdı. Bir də görürdün ki, qaranlıqları aydınlaşdıran günəş kimi nur saçırdı.**



Xəlil Rza azadlıq hayqıran millətin səsi, etirazın ifadə forması, vətənini canından çox sevən vətəndaş, alovlu şair, olduğu kimi görünən, göründüyü kimi olan əsl insan idi. Onun adı çəkiləndə istər-istəməz adamın gözü önündə mübarizə aparan fədakar bir insanın obrazı canlanır. Bu gün bu böyük tarixi şəxsiyyətin 90 yaşı tamam olur.

Xəlil Rza Ulutürk 21 oktyabr 1932-ci ildə Salyan rayonunun Pirəbbə kəndində dünyaya göz açıb. 62 illik zamanda bir insan ömrünə sığmayan çox böyük işlər görüb. Ədəbi mühitə 1948-ci ildə "Abşeron" şeiri ilə gələn Xəil Rza özünün orijinal poetik düşüncəsi, özünəməxsus dəst-xəti ilə seçilir və ədəbi zirvəyə doğru inamla irəliləyir. 1954-cü ildə BDU-nun Filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alan şair qısa zaman kəsiyində görkəmli alim, tərcüməçi, tənqidçi və ən nəhayət, yorulmaz vətənpərvər, istiqlal mücahidi kimi tanınır və özünü təsdiq edir.

Xəlil Rza təmənnasız, dünya malında gözü olmayan, yeganə arzusu, istəyi vətənini müstəqil, millətini azad görmək istəyən çox nadir insanlardan idi. Bunu onun həyat kredosu da adlandıra bilərik. Hələ 1960-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda müəllim işləyən Xəlil Rza tələbələr qarşısında antisovet çıxışlarına görə müəllimlikdən uzaqlaşdırılır, arzuolunmaz şəxs elan olunur, gənc nəsillə görüşünə qadağalar qoyulur. Amma, necə deyərlər, selin qarşısını kəsmək olmur. Xəlil Rza gur, səs-küylü axan bir dağ çayı kimi guruldayıb daşırdı. Bir gün vulkan kimi püskürəcəyi açıq-aşkar hiss olunurdu.

200 ildir ki, başımıza gələn bəlaların da xoşbəxtliklərin səbəbkarı Qarabağdır desək, səhv etmərik. Ermənilər ən gözəl, səfalı, eyni zamanda məhsuldar torpaqlarımıza köçürüldükdən sonra başımıza gələn bəlalar da artmağa başladı. Cəlladlar dəfələrlə insanlarımızı qan gölündə boğdular. Ölkəmizdə Azadlıq hərəkatı da Qarabağ dalğası üzərində başladı...

1990-cı illərdə ermənilər Qarabağda separatçı hərəkata başlayanda şair Xəlil Rza bu dəfə başqa bir formada, istiqlal mücahidi kimi meydana çıxdı. Bu illərdə Xəlil Rza hadisələrin mərkəzində idi, alovlu çıxışları, vətənpərvər şeirləri ilə insanları mübarizəyə səsləyirdi.

Xəlil Rza vətən sevdalısı, azadlıq aşiqi idi. Pərvanə sevdasının başına fırlanıb özünü sevdiyi şamın oduna çırpıb yandırdığı kimi, Xəlil Rza da vətənimizi qarış-qarış gəzib, yurdun başına fırlanıb, ermənilərə, onların havadarlarına kin, qəzəb püskürürdü. Özünün rahatlığını, hətta həyatını bu yolda qoyaraq imperiyaya meydan oxuyurdu. Xəlil Rza azadlıq mübarizəsinin simvollarından idi... Xəlil Rza gözəl bilirdi ki, azadlıq verilmir, azadlıq alınır. Şair əsl milli mücahid idi... Harada mücadilə varsa, orada da Xəlil Rza var idi.

*Azadlığı istəmirəm*
*Zərrə-zərrə, qram-qram*
*Qolumdakı zəncirləri qıram gərək*
*Qıram! Qıram!*
*Azadlığı istəmirəm*
*Bir həb kimi, dərman kimi*
*İstəyirəm səma kimi,*
*Günəş kimi,*
*Cahan kimi:*
*Çəkil, çəkil, ey qəsbkar:*
*Mən bu yurdun gur səsiyəm:*

Bu şeir azadlıq nəğməkarı Xəlil Rza Ulutürkün avtoportretidir - ömrüboyu azadlıq təşnəsi olan, yaradıcılığı boyu şeirlərində vətənpərvərliyi, azadlığı, müstəqilliyi tərənnüm edən, şeirləri ilə gənclərə Vətən və xalq qarşısındakı mənəvi borc duyğusu aşılayan, hər cür çətinlikləri dəf edərək mübarizə əzmini tərənnüm edən bir şairin daxili dünyasının səsi, illərlə azadlığı əlindən alınmış bir xalqın səsi idi...

Xəlil Rza Azərbaycan dilinin saflığı uğrunda, onun yad sözlərdən, terminlərdən təmizlənməsi uğrunda hələ sovet imperiyasının qaynar çağlarında özünəməxsus formada mübarizə aparırdı. Milli ruhun, milli düşüncənin oyanması üçün fədakarlıqlar göstərirdi.

*Kim qoruya bilməyirsə*
*Öz yurdunu, yuvasını,*
*udmasın yurd havasını.*
*Kim qorumur öz dilini,*
*itsin mənim gözlərimdən ilim-ilim,*
*O sahili bu sahilə birləşdirən*
*polad körpüm, qılıncımdır,*
*günəşimdir mənim dilim!*

İllər idi ki, imperiya ipə-sapa yatmayan, heç bir qəlbə sığmayan Xəlil Rzanı "nəzarətində" saxlayıb, onu susdurmaq üçün bəhanə gəzirdi. SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əlinə belə bir imkan bir də 1990-cı ildə sovet qoşunları Bakıda qanlı qırğın törətdikdən az sonra düşdü. İmperiya nökərləri şairin qanına susamış ermənilərin fitvası ilə Xəlil Rzanı 1990-cı il yanvarın 26-da həbs edərək Moskvaya, Lefertovo həbsxanasına apardılar. Sözünü, fikrini qəfəsə, qəlibə sala bilməyən bir azadlıq mücahidinin dəmir barmaqlıqlar arxasına salınması, 8 ay 13 gün xalqından, vətənindən təcrid edilməsi, təbii ki, şairin sağlamlığına vurulan ağır zərbə idi. Şəkər xəstəliyi olan şairin mənəvi terrora məruz qalması səhhətində özünü hər gün büruzə verirdi. Lakin bu ağır günlərdə də şair öz qənirsiz yaradıcılıq eşqi ilə sübut edirdi ki, onu həbs edə bilərlər, ruhu isə hər yerdə, hətta həbsxanada da azaddır. Xəlil Rza Ulutürk həbsxanada olarkən "Lefertovo gündəliyi"ni, 200-dən çox şeir, poema və məktublarını qələmə alır.

Azərbaycan ədəbi mühitində öz xarakteri, dünyaya baxışı, orijinal ədəbi düşüncəsi, ictimai-siyasi fəaliyyəti, fəlsəfi fikri ilə seçilən milli demokrat Xəlil Rza Ulutürk xalqın qəlbində yurd salan, əbədiyaşarlıq qazanmış böyük şəxsiyyətlərdəndir. Nə qədər ki Azərbaycan var, nə qədər ki Azərbaycan ədəbiyyatı var, nə qədər ki bu vətəni canından əziz bilən insanlar var, bir o qədər də türkçülük, azərbaycançılıq və istiqlalçılıq ideologiyasını canında, ruhunda bəsləyib pərvazlandırmış Xəlil Rza var. Xəlil Rza Ulutürkün həmişə vətən, millət üçün döyünən ürəyi 1994-cü il iyunun 22-də əbədi olaraq dayandı. Sağlığında ölümsüzlük qazananlar ölmürlər, əbədi olaraq ürəklərdə, sevgilərdə yaşayırlar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Elm xadimləri

# Nəzəriyyə ilə ədəbi tənqidin qovşağında

**Azərbaycan ədəbiyyatşünaslıq elmində tədqiqatçıların təmsil etdikləri elmi istiqamət üzrə təsnifatını aparsaq, yalnız konkret bir sahə üzrə ixtisaslaşan elm adamı göstərmək çətindir. Bu məqamda ən münasib metod ədəbiyyatşünas alimlərin elmi fəaliyyətində ədəbiyyat haqqında elmin hansı istiqamətinin ağırlıq təşkil etməsini önə çəkmək daha məqsədəuyğundur. Məsələn, humanitar və ictimai elmlərin bir çox sahələri ilə professional səviyyədə məşğul olan akademik Məmməd Cəfər Cəfərov daha çox ədəbiyyat nəzəriyyəçisidir. Aşıq ədəbiyyatı və XVIII-XIX əsrlərin klassikləri haqqında da elmi araşdırmaların müəllifi olan akademik Həmid Araslı Orta əsrlər Azərbaycan klassik ədəbiyyatının görkəmli tədqiqatçısı kimi qəbul olunur. AMEA-nın müxbir üzvləri Abbas Zamanov və Əziz Mirəhmədov ədəbiyyat tarixçisi-mətnşünas kimi ixtisaslaşmışlar. İndinin özündə belə AMEA-nın müxbir üzvü Yaşar Qarayevin tənqidçi və ya ədəbiyyat nəzəriyyəçisi olması ətrafında mübahisə edənlər vardır.**

Bu meyarlar əsasında yanaşsaq, filologiya elmləri doktoru, professor Şirindil Alışanlını ədəbiyyatşünaslıq elminin hansı istiqamətinə aid etmək olar? Suala cavab tapmaq üçün alimin müraciət etdiyi mövzular, apardığı araşdırmaların əhatə dairəsi, hazırda məşğul olduğu istiqamətlər haqqında təhlil və müqayisələr aparmaq kifayətdir. Doğrudur, Şirindil Alışanlının elmi maraq dairəsi genişdir. Onun ədəbiyyat tarixi və folklorşünaslığa, müasir yazıçı və şairlərə, ədəbi əlaqələrə və ayrı-ayrı ədəbiyyatşünasların həyatı və fəaliyyətinə dair də kifayət qədər əhəmiyyətli axtarışları, tədqiqatları, çap olunmuş məqalələri vardır. Bununla belə professor Şirindil Alışanlının bir ədəbiyyatşünas alim kimi aparıcı tədqiqat yönümü ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqidlə əlaqədardır. Ədəbiyyatşünaslıq elminin bu əsas iki istiqamətinin hər birində Şirindil Alışanlının özünəməxsus xidmətləri, payı, rolu və diqqətəlayiq əsərləri vardır.

Şirindil Alışanlının fəaliyyətində aparıcı elmi istiqamətin müəyyənləşməsində ali məktəb mühitinin özünəməxsus rolu olmuşdur. Hələ Azərbaycan Dövlət Universitetinin tələbəsi ikən Filologiya fakültəsinin birinci kursunda "Ədəbiyyatşünaslığa giriş" fənni üzrə görkəmli yazıçı və tanınmış ədəbiyyat nəzəriyyəçisi Mir Cəlal Paşayevdən dərs alması onun ədəbiyyat nəzəriyyəsi yolunu seçməsində mühüm rol oynamışdır. Şirindil Alışanlının məqalələrində bu reallıq əsas ştrixləri ilə və böyük səmimiyyətlə etiraf edilir: "Azərbaycan ədəbi nəzəri fikrində "Ədəbiyyatşünaslığın əsasları" və "Ədəbiyyat nəzəriyyəsi" fənləri üzrə ən mötəbər dərslik kimi Mir Cəlal müəllimin adı ilə bağlı tədqiqatlar və "Ədəbiyyatşünaslığın əsasları" öz missiyasını bu gün də yerinə yetirir.

…Mir Cəlal müəllim Azərbaycanda ədəbiyyat adamlarının bir neçə nəslinin müəllimi olmuşdur. Filologiya fakültəsində təhsil almış hər bir tələbə öz ailəsinə, işlədiyi kollektivə, dərs dediyi sinif otağına Mir Cəlal müəllimin sadəlik, paklıq işığından pay aparmışdır. Bu sətirlərin müəllifi və Mir Cəlal müəllimin onlarca tələbəsi onun parlaq xatirəsini əziz tuturlar.

"Ədəbiyyatşünaslığın əsasları" fənnindən bizə mühazirə oxuyur və bizim qrupda seminar məşğələlərini özü aparırdı. …Mir Cəlal müəllim öz kafedrası xətti ilə bizim qrupun bütün imtahanlarına gəlir və məndən imtahanı özü götürürdü".

Məhz Mir Cəlal müəllimin unudulmaz ədəbiyyat nəzəriyyəsi dərsləri Şirindil Alışanlını ədəbiyyatşünaslıq elminin bu sahəsinə gətirmişdir. O, 1975-ci ildə Azərbaycan Dövlət Universitetinin sonuncu kurs tələbəsi kimi "Məmməd Cəfər Cəfərovun ədəbi-nəzəri görüşləri" mövzusunda diplom işi yazıb uğurla müdafiə etməklə bir daha ədəbiyyat nəzəriyyəsi ixtisası üzrə qərarlaşmışdır. Bundan sonra Şirindil Alışanlının işləyib-çalışdığı təşkilatların əksəriyyəti ədəbiyyat nəzəriyyəsi ilə bağlı olmuşdur. O, 1976-cı ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda akademik Məmməd Cəfər Cəfərovun rəhbərlik etdiyi "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində fəaliyyətə başlamışdır. İşə başladıqdan az sonra, 1977-ci ildə o, Azərbaycan Yazıçılar Birliyi və "Ədəbiyyat və incəsənət" qəzeti ilə birlikdə "Poema: axtarışlar, perspektivlər" mövzusunda keçirilmiş müzakirələrdə əsas məruzəçi kimi çıxış etmişdir.

SSRİ Elmlər Akademiyası Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda tanınmış ədəbiyyat nəzəriyyəçisi, professor Nikolay Qeyin müdiri olduğu və dünyada məşhur olan nəzəriyyəçi alimlərin çalışdığı "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində 1977-1980-ci illərdə təcrübə keçməsi onun elmi dünyagörüşünün inkişafında mühüm rol oynamışdır. Şirindil Alışanlı görkəmli ədəbiyyat nəzəriyyəçisi və estetik professor Yuri Borevin elmi rəhbərliyi ilə 1981-ci ildə "Romantizm problemi və onun Azərbaycan sovet ədəbiyyatşünaslığında tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Sonrakı illərdə o, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Tarixi poetika" şöbəsinə rəhbərlik etmiş və poetika məsələlərinə həsr olunmuş bir neçə məqalələr toplusu çap etdirmişdir. Şirindil Alışanlı 2011-ci ildə "Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığının nəzəri-metodoloji problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və ədəbiyyat nəzəriyyəsi indeksi üzrə filologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

Professor Şirindil Alışanlının ədəbi tənqid üzrə formalaşması və inkişafının təbii və real əsasları vardır. Belə ki, o, Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində III kurs tələbəsi kimi dövrün görkəmli tənqidçilərindən olan akademik Bəkir Nəbiyevin keçdiyi ədəbi tənqid xüsusi kursunun fəal müdavimlərindən biri olmuşdur. Bundan başqa, həmin illərdə dövrü mətbuatda kəskin tənqidi məqalələrlə çıxış edən tanınmış tənqidçi Qulu Xəlilovun tələbəsi olması da onun ədəbi tənqidə marağının artmasına müsbət təsir göstərmişdir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda işə başlayarkən gənc tənqidçi kimi yazdığı məqalələr hətta ən mötəbər təşkilatlarda ciddi müzakirə mövzusuna çevrilmişdir: "Ədəbi prosesdə geniş əks-səda doğurmuş, qapalı iclasların müzakirə predmeti olmuş ilk məqalələrimdən sonra Mərkəzi Komitə mənə bir il çap olmağa imkan vermədi. Arxivimdə saxladığım, otuz səkkiz il əvvəl imzalanmış növbəti məqaləmi "Ədəbiyyat və incəsənət" qəzetinin sabiq redaktoru, rəhmətlik Yusif Əzimzadə mənə qaytarıb təəssüf dolu baxışları ilə "Oğlum, bir az gözlə, MK-dan göstəriş veriblər, səni çap edə bilmərik" demişdi. Belə məhdudiyyətlərə baxmayaraq, cavan tənqidçi sınmadı, sonrakı illərdə də ədəbi tənqid sahəsindəki fəaliyyətini ardıcıl olaraq davam etdirdi. Ədəbi tənqidə fəal və ardıcıl münasibətində xalq yazıçısı - tənqidçi Elçinin xüsusi rolunu da Şirindil Alışanlı mənəvi borc hissinin ifadəsi kimi elmi mühitə bəyan etmişdir: "Mənim təmsil olunduğum tənqidçi - ədəbiyyatşünas nəslini ədəbi cəmiyyətə təqdim edən, onun qolundan tutan, belə nəcib missiyanı bu gün də davam etdirən Elçin müəllimdir".

Tənqidçi kimi də Şirindil Alışanlı səmərəli şəkildə fəaliyyətini davam etdirmişdir. O, XX əsrin səksəninci illərinin əvvəllərində Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda keçirilən "Ədəbi proses" yaradıcılıq müşavirələrində ilk dəfə Yaşar Qarayev, Akif Hüseynov, Şamil Salmanov kimi tanınmış tənqidçilərlə bir sırada



poeziya haqqında məruzəçi kimi çıxış etmişdir. Onun 1982-ci ildə "Azərbaycan" jurnalında çap edilmiş "Ədəbi tənqid haqqında qeydlər" məqaləsində artıq "Ədəbi tənqid necə olmalıdır" sualına cavablar təqdim olunur, bununla ədəbi tənqid konsepsiyası haqqında baxışları meydana qoyulur. Sonrakı illərdə yazdığı "Tənqid tarixi və müasirlik" (1984), "Sənətdə müasirlik problemi" (1984), "Milli tarixi ənənələr və müasir ədəbiyyatda şəxsiyyət konsepsiyası", "Zamanın tələbi və oxucu inadı" (1987), "Tənqidimizin müdrik ağsaqqalı" (1989), "Tənqidi sözün kəsəri" (2003), "Görkəmli ədəbiyyatşünas-tənqidçi" (2006), "Yaşar Qarayev fenomeni", "Çağdağ ədəbi-siyasi reallıqlar və Azərbaycan ədəbiyyatşünaslığı" (2011), "Elçinlə söhbətin zaman və məkan hüdudları" (2012), "Qulu Ağsəsə məktub" (2016), "Şair Nazim Əhmədliyə məktub" (2017) və sair məqalələrində ədəbi tənqidin tarixi təcrübəsi, inkişaf yolu, müasir vəziyyəti və nəzəri-estetik problemləri öz əksini tapmışdır. Şirindil Alışanlının 2013-cü ildə çapdan çıxmış "Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi" kitabında ədəbi tənqidlə əlaqədar problemlər "Ədəbi tənqid və tarixi ədəbi proses" adlanan xüsusi bölmədə monoqrafik şəkildə şərh və həll olunur. Alim bu qənaətdədir ki, "bədii əsərin bütöv - sistemli təhlili problemi indi tənqid və ədəbiyyatşünaslığın həll etməli olduğu mühüm problemlərdəndir… Bizim tənqid və ədəbiyyatşünaslıq nümunələrində çox vaxt əsərin yarandığı tarixi gerçəkliyin reallığı, müəllif şəxsiyyəti, bədii əsərin yarandığı epoxanın mədəniyyəti ilə bağlılıq nəzərə alınmadığından bir sıra klassik əsərlərin ideya-bədii keyfiyyətləri ötəri şərh edilmişdir… Bədii əsərin bütöv, sistemli təhlilindən çıxış etməyən tənqid zahiri əlamətlərə aludə olur, əsərin ideya-poetik xüsusiyyətlərini üzə çıxara bilmir. …Təsviri, emprik yox, professional tənqid ədəbiyyatşünaslıqla təbii şəkildə birləşir". Tərəddüd etmədən demək olar ki, Şirindil Alışanlının ən yaxşı ədəbi-tənqidi məqalələrində tənqid və ədəbiyyatşünaslığın bu mühüm xüsusiyyətləri özünün layiqli əksini tapır. Şirindil Alışanlı tənqidçi kimi özünə və sözünə olduğu kimi, yazıçılara və tənqidçilərə də tələbkar münasibət bəsləyir. Onun tənqidçilik fəaliyyətində yazıçı sözünə, bədii əsərlərə həm elmilik, həm də bədiilik meyarlarından yanaşaraq qiymət vermək əsas meyardır.

Qeyd etdiyimiz kimi, Şirindil Alışanlının əsas elmi istiqaməti ədəbiyyat nəzəriyyəsidir. O, Azərbaycan ədəbiyyat nəzəriyyəsi elmində bədii metod, o cümlədən yaradıcılıq metodunun tipologiyası, poetika, dövrləşdirmə və sair kimi problemlərin araşdırılması və nəzəri həllinə özünün sanballı töhfələrini vermişdir. Onun "Romantizm: mübahisələr, həqiqətlər" (2000) monoqrafiyası elmi ictimaiyyət tərəfindən yüksək dəyər almışdır, bu ədəbi cərəyana ən yeni baxışları əks etdirən ciddi nəzəri tədqiqat kimi təqdir edilir. Şirindil Alışanlının tədqiqatlarında Azərbaycan ədəbiyyatında romantizm hadisəsi klassik romantik poeziya zəminində meydana çıxan ədəbi cərəyan kimi təqdim olunur. Məsələnin bu cəhəti elmdə ədəbi cərəyanların formalaşma mənbələrinin əsasən Qərbdən və Rusiyadan gələn axınlarda axtarılması meylinin dəyişdirilərək, milli ədəbi-tarixi proseslərdən doğan qanunauyğunluq hadisəsi olmasının əsaslandırılması deməkdir. Şirindil Alışanlı ədəbi metodla ədəbi cərəyan anlayışlarını da vahid elmi-nəzəri sistemdə araşdırmaqla Azərbaycan ədəbiyyatındakı çoxəsrlik davamlı proseslərin qanunauyğunluqlarını diqqət mərkəzinə çəkir. Onun bədii metodun tipologiyası məsələlərinə həsr edilmiş tədqiqatları ilə Azərbaycan ədəbiyyat nəzəriyyəsi elmi metodşünaslığın nəzəri-metodoloji problemləri ilə zənginləşdirilmişdir. Şirindil Alışanlının "Bədii metod konsepsiyasının təşəkkülü və inkişaf mərhələləri" adlanan tədqiqatı alimin Azərbaycan ədəbiyyat nəzəriyyəsi elmindəki möhürüdür. Şirindil Alışanlı "varlığın obrazlı dərkinin ümumi prinsiplərini müəyyən edən" bədii metodun nəzəri şərhini onun Azərbaycan ədəbiyyatındakı təşəkkülü və inkişaf mərhələləri ilə üzvü əlaqədə araşdırıb öyrənməklə bu anlayışın milli məzmununu meydana qoyur və əsaslandırır. Bədii metodun tədqiqatçısı haqlı olaraq bu qənaətdədir ki, "XX əsr Azərbaycan ədəbiyyatşünaslığında bədii metod konsepsiyasının təşəkkülü və inkişaf mərhələlərinin tədqiqi iki cəhətdən əhəmiyyətlidir. Birincisi, bu problem ədəbi-nəzəri fikir tarixinin bir qoludur və onun tədqiqi zəruridir. Digər tərəfdən, yaradıcılıq metodunun tipləri, poetikası başlıqlarında dünya ədəbiyyatının, o cümlədən Azərbaycan ədəbiyyatının bir çox problemləri öz şərhini tapmışdır". Bədii metodun nəzəri-metodoloji prinsipləri və meyarları, "bədii metodun tipoloji tədqiqləri" haqqındakı tədqiqatları ilə yanaşı, bu anlayışı konkret olaraq Azərbaycan ədəbiyyatının görkəmli sənətkarlarının yaradıcılığının təcrübəsi əsasında öyrənib şərh etməklə Şirindil Alışanlı elmi dövriyyəyə gətirib nəzəri cəhətdən təhlillə cəlb etdiyi müddəaları daha da möhkəmləndirir. Bu baxımdan Mirzə Fətəli Axundzadənin, Cəfər Cabbarlının, Səməd Vurğunun, elmdə Mir Cəlalın, Məmməd Cəfər Cəfərovun, Yaşar Qarayevin yaradıcılıq metodu konsepsiyalarının özünəməxsusluqlarına həsr edilmiş tədqiqatları milli metodşünaslıq nəzəriyyəsinin formalaşdırılmasına uğurla xidmət edir.

Ədəbiyyatda dövrləşdirmə probleminə də Şirindil Alışanlı ümumi nəzəri konsepsiyalarla ədəbi prosesin qanunauyğunluqları, faktları və hadisələrinin üzvü əlaqəsi kimi yanaşmaqla ümumiləşdirilmiş qənaətlərə gəlməyə üstünlük verir. Humanitar elmi-ədəbi fikrin dövrlər üzrə təsnifatında məlum formasiyalar nəzəriyyəsini nəzərə alan tədqiqatçı bu "nəzəriyyənin sədlərinin aşan məqamlarının da mövcud olduğunu", son illərdə isə "dünya ədəbiyyatındakı sivilizasiyaların"da nəzərə alınmasını görmək və göstərməklə özündən sonra bu istiqamətdə fərqli tədqiqatların yaradılmasına da yol qoyur. Bu mənada Şirindil Alışanlının "Müasir humanitar təfəkkür və ədəbi fikrin dövrləşdirilməsi problemi" tədqiqatı məsələnin qoyuluşunun nəzəri dərki isə yanaşı, perspektivlərinə doğru bir mərhələnin əhəmiyyətli faktına çevrilir.

Azərbaycan ədəbiyyatşünaslığında poetika məsələlərinin kompleks şəkildə araşdırılmasına da Şirindil Alışanlı əhəmiyyətli elmi töhfələr vermişdir. "Azərbaycan ədəbiyyatının tarixi poetikası" adı ilə nəşr etdirdiyi bir neçə məqalələr toplusu ədəbi-nəzəri fikrimizin nadir poetikaşünaslıq külliyyatlarıdır. Ədəbi janrlar haqqındakı araşdırmaları poetika konsepsiyasını zənginləşdirən və tamamlayan nəzəri baxışlardan ibarətdir.

Ümumiyyətlə, Şirindil Alışanlı ədəbiyyat nəzəriyyəsinə dair tədqiqatlarını, nəzəri-estetik görüşlərini elmi-ədəbi fikrin faktları və hadisələri ilə əlaqəli şəkildə təqdim edir. Belə məqamlarda o, təkcə özünün nəzəri baxışlarını konkret ədəbiyyat faktları ilə əsaslandırmır, eyni zamanda müraciət etdiyi bədii əsərlərin ideya-sənətkarlıq imkanlarını da dəyərləndirmiş olur. Problemin bu müstəvidə qoyuluşu Şirindil Alışanlının ədəbiyyat nəzəriyyəsi haqqındakı tədqiqatlarını ədəbi tənqidə yaxınlaşdırır.

Müşahidələrimizə görə, Şirindil Alışanlı ədəbiyyat nəzəriyyəsi ilə ədəbi tənqidin qovşağında olan ədəbiyyatşünasdır. Bir çox araşdırma və məqalələrində isə o, ədəbi tənqidə meyilli ədəbiyyat nəzəriyyəçisidir. Bu isə 2022-ci ildə "Sabah" nəşriyyatında nəşr olunmuş "Sözün yaşamaq haqqı" kitabının adında və məzmununda ifadə olunduğu kimi, bədii mətnin daxili məntiqindən çıxış etməsi professor Şirindil Alışanlının elmi əsərlərinin nəticə etibarilə uzunömürlüyünü müəyyən edir. Heç şübhəsiz, bu həm də 70 yaşlı elm adamının elmi-ədəbi cəmiyyətimiz qarşısındakı əhəmiyyətli bir hesabatıdır. Ömrün indiki müdriklik çağının bu əlamətdar hadisəsinin həm də doğulduğu "Azərbaycanın mərdlik qalası", doğma Laçında qeyd etmək ehtimalının reallığa çevrilməsi taleyin misilsiz xoşbəxtliyidir. Necə deyərlər, "gün o gün olsun ki" motivi artıq arzunun deyil, gerçəkliyin ifadəsidir. İnşallah!!!

Şirindil Alışanlı Azərbaycan Milli Elmlər Akademiyasında nəşriyyat-poliqrafiya işinin əsas qurucularındandır. O, uzun müddət akademiyanın "Elm" nəşriyyatına bacarıqla rəhbərlik etmişdir.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri kimi də Şirindil Alışanlı ədəbiyyatşünaslıq elminin müasir problemlərinin tədqiq edilib öyrənilməsi işinin təşkilinə mühüm töhfələr verməkdə davam edir. Hazırda Ədəbiyyat İnstitutunda hazırlanmaqda olan 10 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin VII cildi professor Ş.Alışanlının rəhbərliyi ilə başa çatdırılmaq üzrədir.

Rusiya Estetik və Azad Sənətlər Akademiyasına üzv seçilmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə alim "Tərəqqi" medalı ilə təltif olunmuş, AMEA-nın fəxri fərmanlarına layiq görülmüşdür.

Hazırda filologiya elmləri doktoru, professor Şirindil Alışanlı Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, institutun Elmi Şurasının və Dissertasiya Şurasının, institutda nəşr edilən elmi jurnalların redaksiya heyətinin üzvü kimi respublika miqyasında ədəbiyyatşünaslıq elminin və ictimai fikrimizin inkişafı sahəsində yazıb-yaratmaqda, yorulmadan çalışmaqda davam edir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti,***
***Nizami Gəncəvi adına***
***Ədəbiyyat İnstitutunun***
***direktoru, akademik***

# Fransada müəllimlər, həkimlər, tələbələr də ümummilli tətilə qoşulublar

## Kütləvi yürüşlər bəzi hallarda polis tərəfindən zorakılıqla dağıdılır

Fransada ötən ayın sonlarında başlayan neft emalı və nüvə sənayesi müəssisələri işçilərinin etraz aksiyaları getdikcə ümummilli tətilə çevrilir. Kütləvi yürüşlər bəzi hallarda polis tərəfindən zorakılıqla dağıdılır.





Parisdə və Fransanın digər şəhərlərində bu sənaye sektorunda çalışan işçilərə maaşların artırılması və enerji qiymətlərinin dondurulması lehinə olan on minlərlə etirazçının qoşulduğu bildirilir.

İlkin məlumatlara görə, tətillərə Paris, Marsel, Tulon, Strasburq və digər şəhərlərdə bir neçə milyon insan cəlb olunub. Dəmiryolçuların tətilə qoşulması səbəbindən qatarların yarısı depoda qalıb. Qitəni Böyük Britaniya ilə birləşdirən La Manş tuneli bağlanıb, İspaniya və İtaliya ilə əlaqə kəsilib.

O da bildirilir ki, artıq müəllimlər, həkimlər, tələbələr, nəqliyyat sektorunun işçiləri və digər sahələrin əməkdaşları da tətilə qoşulublar.

Fransa televiziyasının nümayiş etdirdiyi kadrlarda polisin xüsusi texnikadan istifadə edərək etirazçıları necə zorakılıqla dağıtması göstərilib.

Ölkədə ənənəvi olaraq, iqtisadiyyat, sosial sfera, dövlət idarəçiliyi, miqrasiya siyasəti və sair sahələrdə həll olunmamış problemlər əhalinin narazılığının səbəbi olaraq qalır.

Fransada ictimai və siyasi etirazlar sahəsində ən çox tanınan layihələrdən biri 2018-ci ildə ortaya çıxan "Sarı jiletlilər" hərəkatı olub. Etirazçılar əvvəlcə ölkədə yanacağın qiymətinin artırılmasından narazı qalıblar, daha sonra siyasi sistemi tənqid etməyə keçiblər.

Hazırda hərəkat Fransada və xaricdə siyasi qüvvələrə təzyiq alətlərindən biridir.

Bu arada Marin Le Penin Milli Birlik fraksiyası və solçu partiyaların Yeni Xalq Ekoloji və Sosial İttifaqı koalisiyası Fransa hökumətinə etimadsızlıq səsverməsi keçirmək niyyətində olduqlarını elan ediblər. Onlar xüsusilə qanun layihələrinin parlamentin müzakirəsi və səsverməsi olmadan qəbul edilməsi ilə razılaşmırlar.

"Mən də Milli Birlik parlament qrupu adından hökumətə etimadsızlıq təqdim edəcəyəm", - deyə ifrat sağçı millətçi siyasətçi Marin Le Pen Fransada davam edən kütləvi etiraz və tətillər fonunda bəyanat verib.

Fransa Daxili İşlər Nazirliyi ölkə üzrə qeydiyyata alınmış 107000 nümayişçi, o cümlədən Parisdə 13000 tətilçi haqqında məlumat açıqlayıb.

BFM TV telekanalının xəbərinə görə, ümumi tətil gününün sonunda on minlərlə nümayişçi Fransa küçələrinə çıxıb. Beşinci Respublikanın ən böyük həmkarlar ittifaqı assosiasiyası olan Ümumi Əmək Konfederasiyası Fransada 300000, o cümlədən Parisdə 70000 nümayişçinin olduğunu elan edib.

Fransa Daxili İşlər Nazirliyi bütün ölkəni bürümüş kütləvi nümayiş zamanı 15 nəfərin həbs edildiyini bildirib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*





# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*



*Təkrar*

## "Azərişıq" ASC Samux rayonu ərazisində yerləşən mövcud 110/35/10 kV-luq 2x31.5 MVA gücündə "İstilik Kombinatı" yarımstansiyasının 110/35/10 kV-luq 2x50 MVA gücündə yenidən qurulması işlərinin satın alınması məqsədilə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1: Samux rayonu ərazisində yerləşən mövcud 110/35/10 kV-luq 2x31.5 MVA gücündə "İstilik Kombinatı" yarımstansiyasının 110/35/10 kV-luq 2x50 MVA gücündə yenidən qurulması işlərinin satın alınması.**

**İştirak haqqı - 850 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namiq Heybətov
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə Vergi Bəyannaməsi);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
- *müvafiq lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
- *podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (**www.tender.gov.az**).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 noyabr 2022-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **21 noyabr 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 noyabr 2022-ci il saat 15:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## Pakistan Milli Bankının Azərbaycan Respublikasının Bakı şəhərində filialının ləğv edilməsi ilə bağlı kreditorlara

## B İ L D İ R İ Ş

Pakistan Milli Bankının Baş ofisinin Karaçi şəhərində yerləşən səlahiyyətli orqanı tərəfindən Pakistan Milli Bankının Azərbaycan Respublikasının Bakı şəhərində filialının könüllü ləğv edilməsi barədə müraciəti nəzərə alınmaqla, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 11 oktyabr 2022-ci il tarixli Qərarı ilə Pakistan Milli Bankının Bakı filialına verilmiş 30 iyun 2005-ci il tarixli 248 nömrəli bank lisenziyası ləğv edilmişdir.

Pakistan Milli Bankının Bakı filialının kreditorlarından xahiş edilir ki, 60 (altmış) təqvim günü müddətində tələblərinin qeydə alınması üçün filialın yerləşdiyi AZ1025, Bakı şəhəri, 8 Noyabr prospekti, 9A ünvanına iş günləri saat 10:00-dan 17:00-a kimi müraciət etsinlər.

***Pakistan Milli Bankının Bakı filialının ləğvedicisi Şeyx Ahtsham Ahmed***



## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən 05 may 2022-ci il tarixdə elan edilmiş "Ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan tibbi ləvazimatların satın alınması"na dair keçirilmiş açıq tenderin qaliblər Tender komissiyasının qərarına əsasən, "Zeytun Pharmaceuticals" MMC, "Avromed Company" QSC, "Azəri Med" QSC, "Diamed Co" MMC, "Medsol" MMC, "Paşa-K" firması, "Medeks" MMC, "Arash Medical Company" QSC və "Gill Med" QSC müəyyən olunmuşdur.

10 oktyabr 2022-ci il tarixdə agentlik ilə 9 (doqquz) müəssisə arasında satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC tabeliyində olan İstehsalat Xidmətləri İdarəsinin Xaçmaz rayonu İstisu qəsəbəsində yerləşən "Dənizçi" İM-in ərazisində piyada yollarına asfalt-beton örtüyünün vurulması xidmətinin satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 04 noyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***


# Ermənistanda hakimlərin həbsinə hazırlıq gedir

Ermənistanda ərzaq məhsullarının, daşınan və daşınmaz əmlakın, yanacağın, müxtəlif xidmətlərin qiyməti xeyli artıb. Onsuz da yoxsul vəziyyətdə olan əhalinin yaşayışı gündən-günə ağırlaşır. İstehlak mallarında 5,2 faiz, sənaye mallarında 7,1 faiz qiymət artımı olub ki, bu, heç də təsadüfi deyil. Daxili valyutanın dollara nisbətən ucuzlaşması, dəyərdən düşməsi də diqqət çəkən məqamlar sırasındadır.

Bütün qiymət artımları fonunda Ermənistanda əməkhaqlarında, əhali gəlirlərində əks istiqamətdə, yəni azalmaya doğru mənfi göstərici müşahidə olunmaqdadır. Xüsusilə də bu azalma erməni hərbçilərin əməkhaqlarında özünü daha çox büruzə verir. Ölkənin "Lragir" nəşri yazır ki, Ermənistan-Azərbaycan sərhədində qulluq edən erməni hərbi qulluqçular çox az miqdarda maaş alırlar.

Qeyd olunur ki, ölkədə yoxsulluğun dərinləşməsi və ilin əvvəlindən başlamış dayanmayan inflyasiya fonunda Ermənistan hakimiyyəti müqaviləli hərbçilərin maaşlarının artırılması üçün gözəçarpan addımlar atmayıb. Hərbçilərin sosial şəraiti bərbaddır, hakimiyyət onların həyatını yaxşılaşdırmaq üçün səylər göstərmir. Hərbi qulluqçu Manvel Minosyan deyib ki, bu gün müqaviləli hərbi qulluqçu kimi ailəsinin minimum yaşayış şəraitini təmin etmək üçün kifayət qədər maaş almır: "Yayda biz ilanların, əqrəblərin içində işləyirik, torpaq və alaq otları ilə mübarizə aparırıq, məsələn, patruldan və ya avtobus sürücüsündən daha az maaş alırıq. Hökumətimiz bütün bunları bilməlidir. Mövqelərdə kreditlər və borclar haqqında düşünürük, maaş çox aşağıdır".

Baş nazir Nikol Paşinyan isə bildirib ki, Ermənistanın peşəkar ordusu olmalı, hərbçilər yemək və mənzil problemi ilə üzləşməməli, hərbi hazırlıq universitetini bitirən zabitlər mənzil almalıdırlar. Qeyd edib ki, müqaviləli hərbi qulluqçuların könüllü sertifikatlaşdırmadan keçmək halında ikiqat yüksək maaş alacaqlarına dair layihə də gündəmdədir.

Bu fikirlər Ermənistanda birmənalı qarşılanmayıb. Belə ki, erməni ictimai xadim Voskan Sarkisyan bildirib ki, Paşinyanın dediklərində əsas söz "lazımdır" sözüdür: "Peşəkar ordunu reallığa çevirməli, hərbçiləri mənzillə, sosial şəraitlə təmin etməli olan kimdir? Peşəkar orduya sahib olmaq üçün inkişaf etmiş iqtisadiyyat, böyük hərbi büdcə lazımdır ki, onunla orduya müasir, bahalı silahlar alınsın, zabitlər yüksək maaşla təmin edilsin, onlara mənzillər alınsın. Bu yaxınlarda Nikol Paşinyan açıq şəkildə haqq qazandırırdı ki, pula sahib olsalar da, müxtəlif ölkələrdən silah ala bilmirlər. Nikol Paşinyanın peşəkar orduya sahib olması iddiası qeyri-ciddidir, çünki Ermənistanın iqtisadiyyatı yaxın illərdə eksponent inkişaf edə bilməz. Onun açıqlaması sadəcə arzudur. Yaxud da öz üslubu ilə ictimaiyyətin diqqətini yayındırmaqda davam edir".

Göründüyü kimi, Ermənistanda sosial vəziyyət hər gün pisləşir, işsizlik, cinayətkarlıq isə artır. Paşinyan isə bütün vacib məsələləri buraxaraq, özünə müxalif olan şəxsləri zərərləşdirməklə məşğuldur. Maraqlıdır ki, Paşinyan bu istiqamətdəki fəaliyyətinə hakimlər və vəkilləri də cəlb edib.

Ermənistanın baş prokuroru Anna Vardapetyan prokurorlarla son iş müzakirələrinin birində diqqət mərkəzində olan hakimlər və vəkillərdən danışıb. "Joğovurd" nəşri yazıb ki, Vardapetyan müxtəlif cinayət prosesləri zamanı vəkillərin hakimlərlə vasitəçi əlaqədə olmasına dair bəzi sübutların olduğunu bildirib: "Ötən gün Milli Təhlükəsizlik Xidməti məhkəməyə daxil olaraq icraatda olan bir iş üzrə hakim Arusyak Aleksanyanı və vəkil Erik Aleksanyanı həbs edib. Bəs niyə məhz bu hakim və vəkil? Xatırladaq ki, bu il iyulun 22-də cinayət aləmində böyük nüfuza malik olan leninakanlı Suro ləqəbli "qanuni oğru" Suren Avetisyan həbs edilib. İndi isə hüquq-mühafizə orqanlarının əməkdaşları bu işdə hakimin, vəkilin, müstəntiqin hərəkətlərinə şübhə ilə yanaşırlar. Buna görə də oktyabrın 14-də xüsusilə mühüm işlər üzrə müstəntiq Vladimir Asatryan İstintaq Komitəsindəki öz otağında, ötən gün isə hakim və vəkil Aleksanyanlar həbs ediliblər. Məlumata görə, hüquq-mühafizə sistemində aktivlik olduğundan yaxın vaxtlarda səs-küylü həbslər gözlənilir".

Hesab edilir ki, bunların fonunda qarşıdakı dövr ərzində Ermənistanda gərgin vəziyyət yaranacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi İmran Tağızadəyə atası

**SURXAY TAĞIZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Cahan Məmmədova bacısı

**AFİYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin kollektivi 3 saylı Layihə İdarəetmə Qrupunun mühəndisi Vüqar Əliyevə anası

**ELGÜNARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərnəşrin kollektivi nəşriyyatın baş redaktoru Əlövsət Ağalarova əzizi

**HACI HACIBƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əhməd Əhmədzadə Cahan Məmmədova bacısı

**AFİYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əhməd Əhmədzadə ictimai siyasi-xadim

**SURXAY TAĞIZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6506
Sifariş 2968
Qiyməti 40 qəpik